# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 91 (3415) Cümə axşamı / 23-29 dekabr 2021-ci il Qiyməti 40 qəpik


# Müzəffər Ali Baş Komandan



**Dekabrın 24-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 60 yaşı tamam olur. Ömrünün böyük hissəsini Azərbaycanın güclənməsinə, milli maraqlarımızın müdafiəsinə, ərazi bütövlüyümüzün bərpasına həsr edən dövlət başçısının daxili və xarici siyasəti, onun liderlik keyfiyyətləri haqqında bu dəfə özümüz yox, məhz dünyanın nüfuzlu siyasətçilərinin nə düşündüklərini sizlərə təqdim edəcəyik.**

**Azərbaycan Prezidentinin siyasi lider kimi fəaliyyəti onun digər dövlətlərdən olan həmkarları tərəfindən də çox yüksək qiymətləndirilir. Məsələn, Azərbaycan Televiziyasının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar hazırladığı sənədli filmdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Moskva və Bütün Rusiyanın Patriarxı Kirill Prezident İlham Əliyevin Azərbaycan üçün gördüyü işlər barədə danışıblar.**

**Türkiyə Prezidenti qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bölgədə cazibə mərkəzinə çevrilib. Rusiya Prezidenti isə bildirib ki, Azərbaycan Prezidentinin əsas məqsədi ölkəsini, xalqını xoşbəxt görməkdir. Nursultan Nazarbayev Azərbaycan xalqının müstəqillik illərində çətin şərtlər daxilində enerjili, müdrik liderin rəhbərliyi ilə inkişaf etdiyini diqqətə çatdırıb. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun Vətən müharibəsindəki Qələbəsi ilə bağlı Vladimir Putin müsahibəsində bildirib ki, Prezident İlham Əliyevin müdrikliyi hərbi əməliyyatların dayandırılmasına öz töhfəsini verib.**

**Leonid Kalaşnikov,**
**Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə Komitəsinin sədri:**



Azərbaycan Prezidenti İlham Əliyev - dahi atanın layiqli övladıdır. İlham Əliyev yenidənqurmadan sonrakı hərc-mərclik şəraitində heç də atasından geri qalmadı. Azərbaycana rəhbərliyi dövründə o, qonşu ölkələrlə, o cümlədən Rusiya və Türkiyə kimi böyük geosiyasi aktorlarla dostluq münasibətləri qurub, Azərbaycanın qarşılaşdığı çox mürəkkəb bir problemi - ərazi bütövlüyü problemini həll edib. Bunu yalnız görkəmli rəhbər edə bilər. Azərbaycan Prezidenti ilə bizim qarşılıqlı etimada əsaslanan çox yaxşı münasibətlərimiz var. Səmimi deyirəm, bu, istedadlı, zəkalı insandır. Ərazi bütövlüyü problemini sadəcə sözlə və ya hərbi yolla həll etmək mümkün deyil. Bundan ötrü diplomatik təmkin, Rusiya ilə, digər qonşu ölkələrlə xoş, mükəmməl münasibətlər qurmaq və bununla yanaşı, öz dövlətinin imkanlarını artırmaq lazım idi. Prezidentin ad günündə cəsarətlə bu sözləri təsdiqləmək olar: hər bir azərbaycanlı deyə bilər ki, tale onların ölkəsinin üzünə gülüb. Azərbaycanın bəxti Heydər Əliyev ilə də, İlham Əliyevlə də gətirib. Bu, hansısa alınyazısıdır.

**Yücel Karauz, ehtiyatda olan türkiyəli general:**



- Dövlətləri, ölkələri və xalqları idarə edən liderlər ya böyük yüksəliş yaradaraq əbədi tarix qazanırlar, ya da uçurum və fəlakətlərə səbəb olurlar. Azərbaycanın yüz ildən artıq zaman kəsiyindəki dövlətçilik tarixinə baxdıqda Qarabağ Zəfərinin nə qədər böyük əhəmiyyətli hadisə və proses olduğunu aydın görürük.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun qazandığı bu rəşadət əbədiyyətə qədər Türk dünyasının qürur mənbəyi olacaq. Bu tarixi Qələbə ümumilikdə İslam-türk toplumunun dövlətçilik təntənəsidir. Qazanılan rəşadət həm də dünənimizin və işıqlı gələcəyimizin kimliyidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində qəbul etdiyi qətiyyətli qərarlarla mahir diplomat, nəhəng siyasətçi olmaqla bərabər sərrast hərbçi qabiliyyətinə malik olduğunu bütün dünyaya real cəbhə nəticələri ilə nümayiş etdirdi.

**Gennadi Nadolenko,**
**Ukrayna XİN yanında Diplomatik Akademiyanın direktoru:**



- Azərbaycan Prezidenti İlham Əliyev liderlik xüsusiyyətinə malik olan böyük şəxsiyyətdir. O, bütöv bir xalqın simasıdır. Azərbaycan Prezidentinə nəzər saldıqda ağlımıza ilk olaraq sabitlik və uğur gəlir. Azərbaycan Prezidenti sabitlik və uğur simvoludur. Ölkə düzgün istiqamətdə inkişaf edir, bu da liderlik xüsusiyyətlərinə malik Azərbaycan Prezidentinin peşəkarlığından xəbər verir. Prezident İlham Əliyevin cəsarətinin və uzaqgörənliyinin Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı son hadisələrdə bir daha şahidi oldum.

**İvo Yosipoviç, Xorvatiyanın sabiq Prezidenti:**



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq hüququ necə tətbiq etməsi və Qarabağ torpaqlarının yenidən inteqrasiyası heyranedicidir. Builki Bakı Qlobal Forumunda Prezident Əliyevi dinləyərkən əmin oldum ki, Azərbaycan müharibədə qələbə qazandıqdan sonra sülh quruculuğu prosesində də qalib gəlmək, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün bərabər hüquqları və firavanlığı təmin etmək üçün kifayət qədər cəsarətə malikdir. Prezident İlham Əliyev qlobal siyasi arenanın mühüm şəxsiyyəti və güclü milli liderdir".

## MÜSAHİB

# "Paşinyan Qarabağdan əlini çəkib..."



**Cümşüd Nuriyev,**
politoloq

**Politoloq Cümşüd Nuriyevlə hafta.az üçün budəfəki söhbətimizdə 44 günlük savaşdan sonra, Azərbaycan dövlətinin Qarabağda həll edilməli olan problemlərindən və onların həll yollarından danışdıq.**

*Ermənilər Qarabağa əvvəlki kimi rahat gedib-gələ bilmirlər*

Səh. 6

## YUBİLEY



# Zəfər Tarixini yazan Lider

■ Cənab Prezident Rusiyanın 21 ildə nail olduğunu, 44 gündə əldə etdi...

■ O, atası kimi uzaqgörən və nəyi, nə zaman edəcəyini bilən siyasətçidir...

■ Artıq dünyanın elə bir dövləti yoxdur ki, Azərbaycanı bu düzgün yolla inkişafını nəzərə almasın, başa düşməsin...

Səh. 3

## GÜNÜN FOTOSU...



**Putin Ukrayna xəritəsi fonunda hərbçilərlə müşavirədə...**

## GÜNÜN SİTATI

*"Biz Azərbaycanı ən yaxın və yaxşı qonşularından biri hesab edirik"*



**Hüseyn Əmir Abdullahian,**
İranın xarici işlər naziri

## KARİKATURA



**Azad edilmiş ərazilərdə gizlənən təhlükə...**

# Əməkhaqqında gender bərabərsizliyi

**Əli Əlirzayev,**
sabiq millət vəkili, iqtisad elmləri doktoru, professor

Əslində qadınların əmək hüquqlarının qorunmaması, onların məşğulluğunun təmin edilməməsi, ayrıseçkiliyin yaradılması digər problemlər həmişə iqtisadi zərərlə yadda qalır.

Səh. 4

## STATİSTİKA



**■ 2021-ci ildə BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərini 2 284 nəfər məktəbi fərqlənmə attestatı ilə başa vurub.**

Onlardan 1520 nəfər ümumi orta təhsil (IX sinif) səviyyəsi üzrə, 764 nəfər isə tam orta təhsil (XI sinif) səviyyəsi üzrə fərqlənmə attestatı alıb.



Səh. 6

# "Kənddən Şəhərə" yarmarkası

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırlatdı, bu görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlərin müzakirə edildiyini və Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirdi.

Hüseyn Əmir Abdullahian İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

İranın xarici işlər naziri Prezident İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirdi.

Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirildi və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olundu.

## Əli Əsədov Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşüb



**Bu gün Baş nazir Əli Əsədov Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşüb.**

Nazirlər Kabinetindən hafta.az-a verilən məlumata görə, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə inkişafından məmnunluq ifadə edilib. Cari ilin fevral ayında Ankarada keçirilmiş iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın 9-cu iclasında əldə olunmuş razılıqların iki ölkə arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi baxımından vacibliyi qeyd edilib. Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunularaq, birgə həyata keçirilən transmilli layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu xüsusi vurğulanıb. Bakıda keçirilən Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu çərçivəsində aparılacaq müzakirələrin və imzalanacaq sənədlərin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## Gürcüstanla hərbi məsləhətləşmələr



**Dekabrın 21-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın müdafiə naziri cənab Cuanşer Burçuladzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov birgə əməkdaşlığımızın yüksək səviyyədə olduğunu qeyd edərək, bunun ölkələrimizin inkişafı ilə yanaşı bütün regionda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığını xüsusi vurğulayıb. Birgə təlimlərin əhəmiyyətini qeyd edən nazir Gürcüstanda keçirilən “Eternity-2021” kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Müdafiə naziri həmkarına Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə görülən işlər barədə məlumat verib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan iqtisadiyyatı:

## 2003-2021

### Təhlil

***Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin doğum günüdür. Prezident kimi ömrünün 18 ilini Azərbaycan xalqına xidmətlə keçirən, dövlətin müstəqilliyini qorumağı, möhkəmləndirməyi, onu inkişaf etdirməyi özünün əsas vəzifəsi hesab edən, yürütdüyü siyasətin başlıca prioriteti insan amili olan dövlət başçısının 60 yaşı tamam olur. Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkədə həyata keçirilən fundamental islahatlar bütün sahələrin, o cümlədən milli iqtisadiyyatın dayanıqlı inkişafını, sürətlə müasirləşməsini və əhalinin maddi rifahının davamlı şəkildə yaxşılaşmasını reallaşdırıb.***

Daxili və xarici siyasət sahəsində qazanılan uğurlara, həmçinin neft strategiyasının reallaşdırılması, ölkədə makroiqtisadi sabitliyin davamlılığının təmin edilməsi sayəsində möhtəşəm nəticələrə görə ölkə Prezidenti xalqın əvəzsiz liderinə çevrilib. 2003-cü ilin oktyabrından onun birbaşa rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz dünyada gedən riskli proseslərdən özünü qoruya, dinamik inkişafını təmin edə bilib. Azərbaycanda formalaşan və artıq beynəlxalq güclər tərəfindən də qəbul edilən davamlı, dayanıqlı iqtisadi inkişaf modelinin əsas gücü isə ondadır ki, Xalq-Prezident birliyi olduqca möhkəmdir, xalq hər zaman onu bəyənir və dəstəkləyir. Bu modelin reallaşdırılması nəticəsində ölkəmiz güclü dövlətə çevrilib və Azərbaycan beynəlxalq kürsülərdə öz sözünü deyir, müstəqil siyasət aparır, maraqlarını təmin edə bilir.

### Valyuta ehtiyatlarımız 53 milyard dolları ötüb

**2003-cü ildən bu günə qədər, yəni son 18 ildə ölkəmizdə aparılan uğurlu siyasət hesabına bütövlükdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Bu nəticə dünyada rekord göstərici sayılır. 18 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə, valyuta ehtiyatlarımız 27 dəfədən çox artıb.**

Habelə 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Ölkənin strateji valyuta ehtiyatlarının həcmi cari ilin oktyabr ayının sonuna kimi 53 milyard ABŞ dollarını ötüb ki, bu da proqnozlaşdırılan illik ÜDM-in təqribən 110 faizinə ekvivalentdir. Strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur. Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun, sadəcə, 17,3 faizini təşkil edir. Hökumət 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırır. Ötən 18 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Ölkədə işsizlik, təqribən, 6 faiz səviyyəsindədir və bu illər ərzində 2 milyon yeni iş yeri yaradılıb. Bu da onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər düşünülmüş şəkildə və ədalətli bölünür.

Bugünədək həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi də yaradılıb. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.

### Əməkhaqqı və pensiyalar əhəmiyyətli dərəcədə artırılıb

**Dövlət başçısı hələ 2003-cü ildə keçirilən andiçmə mərasimində sosial-iqtisadi göstəricilərin yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında əksini tapmasının vacibliyini önə çəkmişdi. Eyni zamanda, vurğulamışdı ki, pensiya və əməkhaqqı ildə ən azı iki dəfə artırılmalıdır.**

Prezident İlham Əliyevin bu vədi də reallıqda əksini tapıb. Belə ki, təkcə son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi altında indiyədək həyata keçirilən Strateji yol xəritələri özünün əsas məqsədlərinə çatıb. Belə ki, Azərbaycan iqtisadiyyatı 2015-2016-ci illərdəki xarici şokların mənfi təsirindən çıxaraq qısamüddətli dönəmdə sabitləşdi, ortamüddətli dönəmdə isə inkişaf xətti bərpa edilib. Məhz bunun nəticəsində 2020-ci ildə aşağı neft qiymətləri, quraqlıq, pandemiya və Vətən Müharibəsinin təsirlərinə baxmayaraq Azərbaycan iqtisadiyyatının qazandığı immunitet böhranın təsirlərini minimuma endirməyə imkan verib. Strateji yol xəritələrinin uğurlu icrası nəticəsində 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artımı təmin etmək məqsədinin əsası qoyulub. Belə ki, bu il ölkədə ÜDM-in real artımı 5,1 faiz, o cümlədən qeyri-neft ÜDM-in artımı 6,0 faiz, gələn il isə iqtisadi artımın 3,9 faiz təşkil edəcəyi proqnozlaşdırılır. Həmçinin qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından bu il 260 ABŞ dollarına çatması deməyə əsas verir ki, 2025-ci ildə 450 ABŞ dolları hədəfinə nail olunması mümkündür.



Hal-hazırda 2022-2026-cı illər üzrə ölkənin sosial-iqtisadi inkişaf strategiyası və tədbirlər Planı Hökumət tərəfindən hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Yeni strateji sənədin və tədbirlər planının təsdiqi ilə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin icra müddəti 2022-ci il 1 yanvar tarixindən bitmiş hesab olunur.

Qeyd edək ki, Strateji yol xəritələrinin icrası nəticəsində vətəndaşların mənzil əlçatanlığı, maddi rifah və sosial sahədə aşağıdakı islahatlar həyata keçirilib:

*- minimum əməkhaqqının məbləği 105 manatdan 300 manata və orta aylıq əməkhaqqı 494 manatdan 723 manata (2021-ci ilin 10 ayı üzrə) çatdırılıb;*

*- büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqqı məbləği orta hesabla 2 dəfə artırılıb;*

*- əmək pensiyasının minimum məbləği 110 manatdan 240 manata, təyin olunmuş aylıq pensiyaların orta məbləği 192 manatdan 331 manata (2021-ci ilin 11 ayı üzrə) çatdırılıb;*

*- əlilliyə görə ödənilən aylıq müavinətin məbləği 2 dəfədən çox artırılıb;*

*- yaşa görə aylıq müavinətin məbləği 66 manatdan 180 manata çatdırılıb;*

*- sağlamlıq imkanları məhdud uşaqlara ödənilən aylıq müavinətin məbləği 74 manatdan 200 manatadək qaldırılıb;*



*- ailə başçısını itirməyə görə müavinət 61 manatdan 100 manatadək artıb;*

*- beşdən çox uşağı olan qadınlara müavinət - hər uşaq üçün 30 manatdan 70 manata çatdırılıb;*

*- müddətli hərbi xidmət qulluqçularının uşaqlarına müavinət 61 manatdan 120 manata çatdırılıb;*

*- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət 55 manatdan 120 manata çatdırılıb;*

*- Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələrə verilən Prezident təqaüdü - 165 manatdan 210 manata çatdırılıb;*

*- Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 1300 manatdan 1450 manata çatdırılıb;*

*- “Xalq” fəxri adına görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 100 manatdan 180 manatadək, “Əməkdar” fəxri adına görə fərdi təqaüd 60 manatdan 120 manatadək artırılıb.*

*- əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi tədqiqat və ya təhsil müəssisələrində azı 25 il çalışmış elmi dərəcəsi olan işləməyən əmək pensiyası hüququ olan elmlər doktoru elmi dərəcəsinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 01.01.2021-ci ildə təsis edilib:*

*- elmlər doktoru elmi dərəcəsinə görə 200 manatdan 300 manatadək;*

*- fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manatdan 200 manatadək artırılıb.*

Əhalinin hər nəfərinə düşən gəlirlər 4 710 manatdan 5 707 manata çatıb.

> *Azərbaycan bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə dinamik inkişafını müvəffəqiyyətlə davam etdirən tolerant bir ölkədir*

### 2022-ci dövlət büdcəsi də sosialyönümlü olacaq

**2022-ci ilin dövlət büdcəsi zərfinə daxil olan məsələlərin müzakirəsi aydın göstərir ki, gələn ilin əsas maliyyə sənədi də əvvəlki illərdə olduğu kimi, sosialyönümlü olacaq.**

Başqa sözlə, dövlət büdcəsinin sosialyönümlüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət olaraq saxlanılacaq. Büdcədə xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2022-ci il yanvarın 1-dən əməkhaqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, həmçinin digər sosial ödənişlərin artırılmasının qarşıya mühüm vəzifələr kimi qoyulması bunun bariz ifadəsidir. Bu, eyni zamanda, gələn ilin dövlət büdcəsinin də ənənəvi olaraq sosialyönümlü xarakter daşıdığını göstərir. Belə ki, büdcədə sosial xərclər 46,4 faizə çatdırılır və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılır. Bu xərclərin maliyyə tutumunu 13 milyard 851 milyon manata çatdırmaq nəzərdə tutulur. Həmin xərclərin 60 faizi əməyin ödənilməsi ilə bağlıdır. Yeri gəlmişkən, 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunur. Sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard 566 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Ümumiyyətlə isə 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 milyard manatdan, xərcləri 29 milyard manatdan çoxdur. Gələn ilin dövlət büdcəsi müstəqillik tariximizin ən irihəcmli büdcəsi kimi dəyərləndirilir. Təbii ki, yeni ilin dövlət büdcəsində sosialyönümlü istiqamətlər üzrə xərclərin daha da artırılması heç də təsadüfi deyil. İqtisadi tərəqqinin güclü sosial siyasətlə tamamlanması əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Yeri gəlmişkən, ölkə Prezidentinin imzaladığı son fərman və sərəncamlar çərçivəsində yeni ildən tətbiq ediləcək islahatlar üçün dövlət büdcəsindən illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatlar 2,1 milyondan çox şəxsi əhatə edəcək. Prezident İlham Əliyevin 2021-ci il 17 dekabr tarixdə imzaladığı Sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Minimum əməkhaqqı artımı dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, ümumən 800 min işçinin işçini əhatə edəcək. Prezidentin 2021-ci il dekabrın 20-də imzaladığı yeni sərəncam və fərmanlarla müavinət və təqaüdlərin artırılması isə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbənin əhatə edərək onların müavinət və təqaüdlərinin 2022-ci ilin əvvəlindən artırılmasını təmin edir. Bu müavinət və təqaüd artımları üçün illik əlavə 200 milyon manat ayrılıb.

### Yeni strateji hədəflərə doğru

**Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının vurğuladığı kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur.**

Bu gün tarixinin ən qüdrətli illərini yaşayan Azərbaycan postmüharibə dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olmaqdadır. Bugünün reallıqları onu göstərir ki, hökumətin hazırladığı 2022-2030-cu illəri əhatə edən yüksəliş strategiyası sayəsində Azərbaycan daha böyük uğurlara imza atacaq. Sözügedən yol xəritəsində iqtisadi artımın daha dayanıqlı olması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlılığının əhəmiyyətli dərəcədə gücləndirilməsi və azad edilmiş ərazilərin reinteqrasiyası kimi məsələləri gerçəkləşdirmək qarşıya yeni vəzifələr kimi qoyulub. Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə olunan uğurlar onu deməyə əsas verir ki, Azərbaycan 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və növbəti illərdə iqtisadi artımın müsbət meyilləri daha da yüksələcək.

✍ ***Sevinc***

# Zəfər Tarixini yazan Lider

## Yubiley

***Dekabrın 24-də Prezident İlham Əliyevin doğum günüdür. 60 yaşını qeyd edən dövlət başçımız ötən illərdə hər kəsə örnək ola biləcək olduqca zəngin və mənalı bir ömür yolu keçib. Bu gün ölkənin bir qrup ictimai-siyasi xadimi "Həftə içi"nə açıqlamasında Azərbaycan Prezidentinin dövlət başçısı, siyasi lider, Ali Baş Komandan, yüksək xarizması olan bir şəxsiyyət kimi portretini bir daha cızdılar:***

**■ Fəzail İbrahimli, Milli Məclisin sədr müavini:**

- Cənab Prezidenti qarşıdan gələn 60 yaşı münasibətilə təbrik edirəm. Qoy bu xalqa, bu millətə gətirdiyi o sevincin gözəl duyğularını övladları ilə hiss etsin, yaşasın. İlham Əliyev elə bir zamanda hakimiyyətə gəldi ki, Azərbaycan çox gücsüz, büdcəsi zəif, işğal, dünya dövlətlərinin təzyiqi altında yaşayan, haqqını sübut etməyə çalışan, müharibə etmək taqəti olmayan vəziyyətdə idi. O, ilk növbədə, "Regionların inkişaf proqramı" ilə bütün gücünü ölkənin iqtisadi inkişafına səfərbər etdi. Respublikanın köhnə paltarını çıxarıb tulladı, Azərbaycanı dünyaya yeni libasda təqdim etdi. Puşkin "Tunc atlı" poemasında yazırdı ki, I Pyotr toza və çirkaba batmış Rusiyanı toz-torpğın içərisindən çıxarıb dünya dövlətinə çevirdi. O, tək iqtisadi cəhətdən deyil, 21 il müharibə aparıb Rusiyanı qalib dövlətə çevirdi. Ona görə də ona "Tunc atlı" deyirdilər. Pyotra belə bir heykəl də qoyulub. Cənab Prezident Rusiyanın 21 ildə nail olduğunu, 44 gündə əldə etdi. Bu millətin torpaq işğalından canını qurtardı. Qamətimiz düzəldi, haqqımız özümüzə qaytarıldı. Hər bir Azərbaycan kişisi, artıq öz xanımı qarşısında qürurla dayana bilir. 200 il xristian ağuşunda özünə qala quran, o qaladan başımıza güllə və qumbara yağdıraraq ən yaxşılarımızı sıradan çıxaran düşmən məğlub oldu. Siz təqvimimizə fikir verin: 12 ayın 11-də faciə var. 20 Yanvardan başlayan faciəmiz, 20 Noyabr vertolyot qəzası ilə bitir. 20 rəqəmi bizim tariximizdə, sanki bir faciə rəqəminə çevrildi. Bunu yaradan arxasında böyük qüvvələrin durduğu, heç vaxt təkbətək vuruşa bilməyən, amma qalib gələn ermənilər idi. Bizim qələbədə, ilk növbədə, dünya Xristianlığı məğlub oldu. Ermənilər tək işğal etdiyi torpaqdan qovulmadı. 30 ildən sonra "böyük Ermənistan" yaratmaq mifinin yalan olduğu, bu ideologiya ilə addım atanların iflasa uğradığı göstərildi. Cənab Prezident öz addımı ilə dəfn etməkdə olduğumuz "böyük Ermənistan" ideologiyasının tabutuna sonuncu mismarı vurdu. Təsadüfi deyil ki, bu qələbə Türk Dünyasının qələbəsi kimi qeyd olundu. Hər bir xaqlın tarixində bir sərkərdə yaranır, Tanrı tərəfindən ona güc, qətiyyət, diplomatya verilir. Nəticədə millət xilas olur. İlham Əliyev 200 il əzab çəkən, geri çəkilən, itkilər verən, sızıldayan, qəlbində, əlində gücü olmayan milətin xilaskarı kimi ortaya çıxdı. Budur, İlham Əliyev, budur, tarixi həqiqət. İlham Əliyev tarixin Azərbaycan xalqına qarşı tuşlanmış boz sifətini darmadağın etdi. O, nisgilli baxışları darmadağın etdi, qırmızı sifətlərə lənət oxudu. Bax, budur, İlham Əliyev obrazı.





**Fəzail İbrahimli,**
Milli Məclisin sədr müavini



**Fidan və Xuraman Qasımovalar,**
xalq artistləri



**Qasım Hacıyev,**
tarix elmlər doktoru

**■ Fidan və Xuraman Qasımovalar, xalq artistləri:**

- Prezidentimiz İlham Heydər oğlu Əliyev öz fəaliyyəti ilə geniş siyasi potensila malik olduğunu göstərdi. O, ulu öndər Heydər Əliyev kimi bir atanın övladıdır. Ulu öndərin yolu ilə gedən bir insan, əlbəttə, dərin biliyə, güclü xarizmaya malik olmalı idi.

Prezidentimiz bizim fəxrimizdir. İnanırıq ki, İlham Əliyev "Qarabağ Azərbaycandır!" deyibsə, belə də olacaq. Həqiqət öz yerini tapacaq. İndi azad olunan ərazilərimizdə yollar salınır, evlər tikilir, yeni infrastruktur yaradılır. Qarabağ çiçəklənir. Şuşa şəhəri Azərbaycanın Mədəniyyət Paytaxtıdır. İnşAllah, illər keçəcək, biz ora rahat şəkildə gedəcəyik. İndi hələ ki, yollar narahatdır, düşmən torpağa basdırdığı mina xəritələrini verməyib. Biz istərdik, Prezidentimizə cansağlığı arzu edək, Allah ona uzun ömür versin. Öz liderimizi dəstəkləyirik, ona inanırıq. O, atası kimi uzaqgörən və nəyi, nə zaman edəcəyini bilən siyasətçidir.

**■ Qasım Hacıyev, tarix elmlər doktoru:**

- Azərbaycan Prezidenti, cənab İlham Əliyev eyni zamanda Müzəffər Ordumuzun Ali Baş Komandanıdır. Hələ Prezident seçilməmişdən əvvəl onun beynəlxalq təşkilatlarda Ermənistanın Azərbaycan torpaqlarının işğalının əleyhinə olan çıxışları hamımıza yaxşı məlumdur. Bütün fəaliyyəti ilə bərabər, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi onun diqqətindən heç vaxt yayınmadı. Bəlkə də vaxtilə diplomatik danışıqlar və siyasət düzgün istiqamətdə getməsəydi, 44 günlük qələbə zamanı Azərbaycanın üzərinə daha çox basqılar edilərdi. İdeoloji, diplomatik və siyasi baxımdan basqılar edilsə də, cənab Prezident hərb sahəsində bir Komandan, Müzəffər dövlət başçısı kimi Azərbaycan Ordusunun böyük gücü, xalqın birliyi nəticəsində düşmənləri Azərbaycan ərazisindən qovdu, torpaqları işğaldan azad etdi, ərazi bütövlüyümüzü qorudu.

Ölkəmizin Turan Birliyinə qoşulması, Zəfərimiz Zəngəzur yolunun açılmasıdır. Bütün bunların hamısı Azərbaycan dövlətçiliyini, dövlətini o qədər yüksəklərə qaldırdı ki, artıq dünyanın elə bir dövlətləri yoxdur ki, Azərbaycan dövlətinin bu düzgün yolla inkişafını nəzərə almasın, başa düşməsin. Mən orta məktəbdə tədris olunan "Qarabağ Dərsliyi"nin müəllifiyəm. İndiyə qədər Qarabağın necə cənnət guşə olduğunu, Azərbaycan xalqının taleyində böyük rolu olduğunu yazırıq, deyirik. Bizim gənc tarixçilərin yazdığı "Zəfər yolu" kitabının redaktoruyam. Orada da bu tarixi hadisələr, bu proseslər geniş işıqlandırılıb. Mənə verilən bu imkandan istifadə edib, Azərbaycan Prezidentini, Ali Baş Komandanı yubileyi münasibətilə təbrik edirəm. Ömrümün çox hissəsini Qarabağ tarixi ilə məşğul olmuşam. Bu gün çox şadam ki, Azərbaycanın bu dilbər guşəsi, Qarabağla birlikdə 7 rayonumuzun böyük hissəsi işğaldan azad edildi.

Prezidentimizi təbrik edirəm, həm də bütün Azərbaycan xalqına gözaydınlığı verirəm.

**■ Afaq Bəşirqızı, Xalq artisti:**

- Lider, Böyük İnsan, Sərkərdə, əsl Ali Baş Komandan... Mən Prezidenti bu obrazda görürəm. Təbrik edirəm! Doğum günü hər bir insan üçün müqəddəsdir. Bəzən insanlar içi mən qarışıq deyirlər ki, "Doğum gününü qeyd etməyi sevmirəm". İnsan özlüyündə qeyri-ixtiyari də olsa, bir neçə dəqiqə, bir neçə saat, bəlkə də bütün günü bu gün haqqında fikirləşirsə, deməli, onun üçün önəmlidir. Ona bu önəmli günün səadətini, xoş təəssüratını görməyi, həmişə Ali Baş Komandan, Lider kimi qalmağı arzulayıram. Dəmir Yumruğunun Polad Yumruğa çevrilməsini gözləyirəm. AMİN...

Mən dövlət başçımızı Lider, Böyük İnsan, Sərkərdə, əsl Ali Baş Komandan adlandırdım. Əslində, bu söz çox asan deyilir və sadə görünür. Bütün bu titulların fonunda ŞƏXSİYYƏT durur. Bu şəxsiyyəti təsdiq etmək hər liderə, hər Ali Baş Komandana, hər Prezidentə nəsib olmur. İlham Əliyev bu sözlərin hamısını öz simasında təsdiq etdi və həm də Böyük Şəxsiyyət oldu. Torpağa olan sevgisinə, Vətəninin bütövlüyünə, xalqının birliyinə inandı ki, xalq da ona inandı. İnsan özünə inananda artıq sərkərdə olur. Ölkə Prezidenti bütün xalqı, hətta xaricdə olan azərbaycanlıları da inandırdı. Bu bizim üçün çox böyük qələbə ilə nəticələndi. O, bizim 30 il alnımıza düşən ləkəni sildi. Buna görə də bütün həyatımız boyu ona minnətdarıq.

*"*

*Cənab Prezident Rusiyanın 21 ildə nail olduğunu, 44 gündə əldə etdi*

*O, atası kimi uzaqgörən və nəyi, nə zaman edəcəyini bilən siyasətçidir*

*Artıq dünyanın elə bir dövləti yoxdur ki, Azərbaycanı bu düzgün yolla inkişafını nəzərə almasın, başa düşməsin*

*Lider, Böyük İnsan, Sərkərdə, əsl Ali Baş Komandan... Mən Prezidenti bu obrazda görürəm*

*İlham Əliyevi Azərbaycan xalqına, ölkəmizə tarix özü göndərdi*

*Bu gün cənab Prezidentin 60 illiyini tamam fərqli bir formada qarşılayırıq*



**Afaq Bəşirqızı,**
Xalq artisti

**■ Ayaz Salayev, Əməkdar incəsənət xadimi, kinoşünas, rejissor:**

- Prezident İlham Əliyevin 60 illiyi mənim də bayramımdır. Mən həmişə fəxr edirəm ki, ölkəmizin belə bir Prezidenti var. Prezident İlham Əliyevlə bağlı dediklərim səmimi-qəlbdən, ürəkdən gələn sözlərdir.

İlham Əliyevi dünyada ən görkəmli, ən istedadlı siyasi xadimlərindən biri sayıram. Prezident İlham Əliyev, ümumiyyətlə, siyasətçilərdə çox nadir olan cəhətləri -səmimiyyəti, mərdliyi, uzaqgörənliyi özündə birləşdirib. İlham Əliyevi Azərbaycan xalqına, ölkəmizə tarix özü göndərdi.

O, öz bacarığı ilə Azərbaycan xalqının başını uca elədi. Biz elə bil, yenidən doğuluruq. Özünü bu ölkənin vətəndaşı, bu ölkənin tarixi mənsubiyyətinə aid olduğunu dərk etmək həqiqətən də böyük səadətdir. Bu hissi mən İlham Əliyevlə bağlayıram.

Söhbət ondan gedir ki, Prezidentimiz ölkədə elə bir ab-hava yaradıb ki, burada həm mədəniyyət, həm elm, təfəkkür, bədii fikir, elmi təfəkkür çox rahat şəkildə inkişaf edə bilər. İlham Əliyevin ölkədə yaratdığı bu ab-havada adam gələcək haqqında fikirləşir. Keçmişə həsrətlə baxmır. Soruşsalar ki, hansı dövrdə, hansı ölkədə yaşamaq istərdin? Deyərdim ki, indiki Azərbaycanda. Qalib dövlətin qalib sərkərdəsi olan bir ölkədə yaşamaq gözəldir. Bütün müsbət keyfiyyətləri özündə birləşdirən səmimi ölkə başçımız var. Çox zaman ölkə başçılarının danışığına baxırsan və görürsən ki, bunlar səmimi deyil, yalan danışır. Bizim Prezidentimizə baxanda görürsən ki, o, səmimidir və nə düşünür, onu da deyir.

Azərbaycan kiçik bir ölkədir. Bizim Prezident böyük ölkələrin rəhbərləri qarşısında başını əymir, o necə ucadır. Biz də ona baxıb öyrənirik. Ona görə də Prezidentin bu doğum günü mənim şəxsi bayramımdır. İndi mənim 61 yaşım var. Bu günlərə çatıb, belə bir ölkə başçısını görməyimə ürəkdən sevinirəm. Prezidentimizə cansağlığı, uğurlar arzu edirəm.



**Ayaz Salayev,**
Əməkdar incəsənət xadimi,
kinoşünas, rejissor

**■ Mənsum İbrahimov, Xalq artisti:**

- Prezidentimiz 2003-cü ildə hakimiyyətə gələn gündən Ulu Öndərin, Ümummilli Liderin siyasətinə sadiq qalacağını elan etdi. Elə də oldu. Azərbaycan həqiqətən sürətlə inkişaf eləməyə başladı. Ulu Öndər 1993-cü ildə hakimiyyətə gələndə o bünövrəni qoymuşdu. Ulu Öndər Azərbaycanı dağılmaqdan xilas elədi, yenidən qurdu və davamçısı İlham Əliyevə həvalə etdi. Xalqımız İlham Əliyevə inandı, onu yekdilliklə seçdi. Biz öz seçimimizdə yanılmadıq. Bu gün Prezidentimizlə fəxr edirik.

Prezident hakimiyyətə gələn gündən dövlətin güclü iqtisadiyyatını və ordusunu yaratdı. Ordumuz müasir silahlarla təchiz edildi. Gənclərimizin vətənpərvər ruhda böyüməsində böyük işlər gördü, daxili və xarici siyasətdə böyük uğurlar qazandı.

2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz 44 gün ərzində 30 il həsrət qaldığımız torpaqlarımızı düşmən işğalından azad etdi. 44 gün ərzində məhz İlham Əliyevin ətrafında Dəmir Yumruq kimi birləşərək torpağımızı azad etdik. Əlbəttə, biz buna görə sərkərdəmizə, Ali Baş Komandanımıza, cənab Prezidentə təşəkkür edirik. Onun rəhbərliyi ilə döyüşən igid Ordumuza, Şəhidlərimizə, Qazilərimizə borcluyuq.

Azərbaycan bütün dünyada qələbə çalmış xalq, Cənubi Qafqazın lider dövləti kimi tanınır. Əlbəttə ki, bu, cənab Prezident İlham Əliyevin apardığı siyasətin nəticəsidir. Cənab Prezidentlə bərabər birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə aparılan islahatlar, böyük Muğam Televiziya müsabiqələri, beynəlxalq muğam festivalları millətimiz üçün yüksək dəyərə malikdir.

Təsadüfi deyildir ki, cənab Prezidentin rəhbərliyi ilə qələbəmizdən 6 ay sonra Şuşada "Xarıbülbül" festivalında iştirak etdik. Mən mayın 28-i, Müstəqillik Günümüzdə bir ağdamlı kimi Ağdamın təməlqoyma mərasimində iştirak etdim.

Bundan böyük xoşbəxtlik ola bilməz. Bu gün cənab Prezidentin 60 illiyini tamam fərqli bir formada qarşılayırıq. Bunların hamısı ölkənin liderinin yaratdığı fərqlilikdir. Prezidentimiz Vətənini, Millətini çox sevir. Ona cansağlığı, ailə xoşbəxtliyi arzulayıram.Canı sağ olsun ki, millət, dövlət olaraq Qarabağı yüksək ruhumuzla yenidən quraq və o yerlərdə xoşbəxt yaşayaq.



**Mənsum İbrahimov,**
Xalq artisti

***✍ Tahirə Qafarlı***

# Əməkhaqqında gender bərabərsizliyi

## Layihə

***Bu gün əksər ölkələrdə kişilərin və qadınların maaşı arasında ciddi fərq var. Bəzi ölkələrdə kişi və qadınlar eyni işi görsələr də, kişilər qadınlardan daha çox əməkhaqqı alırlar. Qeyd edək ki, əməkhaqqı məsələsində gender balansının pozulması Beynəlxalq Əmək Təşkilatının da diqqət mərkəzindədir. Qurumun kişilərin və qadınların maaşı arasında fərqi göstərən sonuncu hesabatına görə, qadınlar kişilərdən, orta hesabla, 16-22 faiz az əməkhaqqı alırlar. Aylıq maaşda gender bərabərliyinin ən çox pozulduğu ölkə kimi Pakistan göstərilir. Bu ölkədə kişilər qadınlardan 62,5 faiz çox maaş alır. Avropa İttifaqı ölkələri arasında ən pis göstərici Niderlanddadır.***



Beynəlxalq Əmək Təşkilatı qeyd edir ki, Niderlandda qadınların aylıq maaşı kişilərin maaşından 40,3 faiz azdır. Panama, İordaniya və Kabo Verdedə qadınlarla kişilərin maaşı fərqlənmir, Tailandda və Syerra-Leonede isə qadınların maaşı kişilərin maaşından çoxdur. Maaş fərqinin ən çox olduğu ölkələr sırasında Cənubi Koreya və Estoniya da var. Bu ölkələrdə fərq 30 faizdir. Avropada bu fərq 10, Rusiyada 20-25 faiz arasında dəyişir. Ən aşağı göstərici isə Belçika və Lüksemburqdadır - 4 faiz. Çexiyada da qadın və kişi əməyinin qiymətləndirilməsində əhəmiyyətli dərəcədə bərabərsizlik müşahidə olunur. Hazırda bu göstərici 22 faiz təşkil edir. Belə ki, mütləq rəqəmlərdə qadınlar il ərzində orta hesabla kişilərdən 80 min kron (3200 avro) az qazanırlar.

Yeri gəlmşkən, bu yaxınlarda Azərbaycan Karyera İnkişaf Forumunda çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, ölkədə kişi və qadınların əməkhaqqında fərq var. Onun sözlərinə görə, Azərbaycanda kişilər və qadınların əməkhaqlarında fərq hələ də qalmaqdadır: “Bu məsələnin həllini tapması üzərində iş aparılır. Eyni zamanda, qadınların məşğulluq xidmətləri ilə əhatələnməsi artırılmalıdır. Bundan əlavə, hər bir işsiz kimi qeydiyyata alınan şəxsin fərdi məşğulluq planı hazırlanacaq, bununla da aktiv məşğul əhalinin ən azı yarısının işlə təmin olunması nəzərdə tutulub.

Qeyd edək ki, statistik məlumatlara görə, Azərbaycanda bütün sahələr üzrə kişilərin maaşı qadınların maaşından yüksəkdir. Belə ki, 2020-ci ilin sonuna olan məlumata əsasən orta əməkhaqqı qadınlarda 525,6 manat olduğu halda, kişilərdə 830,2 manatdır. Kişilərdə əməkhaqqı səviyyəsi qadınların aldığı maaşla müqayisədə 304,6 manat və ya 58 faiz çoxdur. Qadın və kişilərin orta əməkhaqqı səviyyəsindəki fərq bütün iqtisadi fəaliyyət növlərində müşahidə edilir. Ölkəmizdə ən yüksək əməkhaqqı mədənçıxarma sənayesindədir. Burada orta hesabla kişilər 3455 manat, qadınlar 2081 manat maaş alır. Mədənçıxarma sənayesində maaş fərqi 1374 manat və ya 66 faizdir. Maliyyə və sığorta fəaliyyəti əməkhaqqı səviyyəsi yüksək olan ikinci sahədir. Bu sahədə kişilərin orta maaşı 2022 manat, qadınların orta maaşı 1197 manatdır. Kişilər bu sahədə qadınlara nisbətən 825 manat, yaxud 69 faiz çox maaş alır. Əməkhaqqı səviyyəsində ən böyük fərq olan sahələrdən biri də peşə, elm və texniki fəaliyyətdir. Burada kişilərin orta maaşı qadınların aldığı maaşdan 2 dəfədən də çoxdur. Kişilər 1547 manat maaş aldığı halda, qadınların maaşı 736 manat olub. Fərq 811 manat və yaxud 110 faizdir.

> “
> *Əslində qadınların əmək hüquqlarının qorunmaması, onların məşğulluğunun təmin edilməməsi, ayrıseçkiliyin yaradılması digər problemlər həmişə iqtisadi zərərlə yadda qalır*

İnformasiya və rabitə sahəsində də əməkhaqqı yüksəkdir. Burada orta hesabla qadınlar 877 manat, kişilər 1168 manat maaş alır. Müqayisədən görünür ki, kişilərə qadınlardan 291 manat və ya 33,2 faiz çox maaş verirlər.

Ümumilikdə, Azərbaycanda muzdla çalışanların (1,69 milyon nəfər) böyük hissəsini kişilər təşkil edir. Muzdlu işçilərin 1,028 milyon nəfəri (60,8 faizi) kişilər, 670 mini qadınlardır. Qadınların sayı kişilərdən üç fəaliyyət növündə - səhiyyə və sosial xidmətlərin göstərilməsində (55,2 faiz), təhsildə (46,6 faiz) və istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdə (24 faiz) çox olub.



**Əli Əlirzayev,**
iqtisad elmləri doktoru,
professor

■ **Məsələni hafta.az-a şərh edən sabiq millət vəkili, iqtisad elmləri doktoru, professor Əli Əlirzayev bildirib ki, indiyədək ölkəmizdə gender probleminin müsbət həlli ölkə iqtisadiyyatının inkişafına, ölkənin sosial həyatına, Azərbaycanın hərtərəfli inkişafına zəmin yaradıb.** Onun sözlərinə görə, hazırda bir çox sahələrdə qadınlar kişilərdən daha aktv fəaliyyət göstərirlər: “Məsələn, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qadınların məhsuldarlığından istifadə böyük nailiyyətlərin əldə edilməsi ilə nəticələnib. Yəni, bu sahədə qadınlar olduqca aktivdirlər. Təbii ki, gender probleminin çözülməsi, gender bərabərliyi məsələsinin həlli qadınların cəmiyyətdə rolnunun artırılmasına xidmət edir. Amma bəzi sahələr var ki, orada kişi əməyindən,bəzi sahələrdə qadınların əməyindən istifadə kütləvi xarakter alıb. Əslində qadınların əmək hüquqlarının qorunmaması, onların məşğulluğunun təmin edilməməsi, ayrıseçkiliyin yaradılması digər problemlər həmişə iqtisadi zərərlə yadda qalır. Başqa sözlə, qadın üçün xarakterik işlərin kişilər tərəfindən icrası yüksək effektiv nəticə vermir. Ona görə də gender və gender bərabərliyi probleminin həlli üçün qadın əməyindən və məşğulluğundan düzgün və səmərəli istifadə ölkə iqtisadiyyatına böyük səmərələr verə bilər. Bu gün dövlət səviyyəsində bu istiqamətdə ciddi tədbirlər görülür, nəticədə qadınların əvvəlki illərlə müqayisədə iqtisadi fəallığı əhəmiyyətli dərəcədə yüksəlib. Ona görə demək olmaz ki, qadınlar kişilərdən daha az əməkhaqqı alırlar. Belə bir diskriminasiya, ayrıseçkilik bizim cəmiyyətdə mövcud deyil. Məsələn, mən ali məktəbdə dərs deyirəm. Mənimlə eyni işi görən, eyni dərs bölgüsü olan qadın həmkarımla eyni məbləğdə əməkhaqqı alırıq. Bu məsələ səhiyyə və digər sahələrə də aiddir. Sadəcə olaraq elə sahələr var ki, orada əməkhaqqı daha yüksəkdir, amma qadın əməyindən istifadə olunmur. Tutaq ki, mədənçıxarma sənayesi. Bu sahə spesifik və ağır əmək rejimi tələb etdiyindən burada əsasən kişilər çalışırlar. Əməkhaqqında yananan fərq bu kimi sahələrlə bağlı ortaya çıxır. Digər bir məsələ də var ki, bizdə məşğul əhalinin əsas hissəsi kişilərdən ibarətdir. Yəni, qadınlarla müqayisədə kişilərin əməkhaqqı fondunda payı daha yüksəkdir.Bu da istər-istəməz statistik nəticələrdə özünü göstərir”.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya
məsələlərinin işıqlandırılması

■ **Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov isə hesab edir ki, bu gün əmək bazarının və məşğulluğun formalaşmasında qadınların rolu kifayət qədər deyil:** “Məsələn, ana olan qadınlar üçün infrastruktur olsa, onlar öz uşaqlarını bağçaya qoyar, yaxud dayələrə tapşırar. Bu bir faktdır ki, Azərbaycanda uşaq bağçalarının və körpələr evlərinin sayı kifayət qədər azdır. Üstəlik, respublikamızda dayəlik çox zəif inkişaf edib. Ona görə də həmin qadınlar məcburiyyət qarşısında qalaraq evdə oturur, uşaqlara baxır və öz vaxtlarını onlara ayırırlar. Bu cür hal isə ölkənin əmək bazarının formalaşmasına ciddi mənfi təsirini göstərir. Ona görə də qadınların əmək bazarına çıxışını asanlaşdırmaq üçün əlavə infrastruktur sahələr yaradılmalıdır. Bu məsələdə körpələr evlərinin, uşaq bağçalarının sayının artırılması, dayəlik institutunun inkişaf etdirilməsi mütləq nəzərə alınmalıdır. Yaxud, sosial məzuniyyətlərdən qayıdan qadınlar üçün pulsuz peşəyönümlü və ya peşələrin dəyişdirilməsi istiqamətində kursların təşkili də vacib amillərdən biridir. Qadınlar üçün münasib olan iş yerlərinin yaradılması da kompleks tədbirlər planında öz əksini tapmalıdır. Qadınların çalışdıqları ənənəvi yüngül sənaye sahələrinin inkişafı və sair də nəzərə alınmalıdır”.

### Ekspert rəyi...

■ **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin də fikrincə, ölkəmizdə gender bərabərsizliyinin özünü ən çox göstərdiyi sahələrdən biri əmək bazarıdır:**

“Dünyada işsiz qadınların sayı kişilərdən xeyli çoxdur. Bu gün Azərbaycanda iqtisadi fəal kişilərin 51,8 faizi, qadınların isə 48,2 faizi məşğul əhalı qrupuna aiddir. İşsizlərin 57,5 faizini qadınlar təşkil edir. Əməkhaqqına münasibətdə də kişi əməyinə nisbətən qadın əməyinin diskriminasiya olunduğunu söyləmək olar. Dünyada kişi əməyi 1 dollar, qadın əməyi isə 77 sentlə qiymətləndirilir. Azərbaycanda qadınların orta əməkhaqqı kişi əməyinin yalnız 63,3 faizini təşkil edir.

Bu rəqəm elmi-texniki fəaliyyət sahəsində 47,6 faiz, maliyyə və sığorta fəaliyyəti sahəsində 59,2 faiz, emal sənayesi sahəsində 63,8 faiz, səhiyyə və sosial xidmətlər sahəsində 63,9 faiz, təhsil sahəsində isə 79 faiz təşkil edir. Qadın sahibkarlığına ölkədə kifayət qədər dəstək verilməsinə baxmayaraq hələ də sahibkar qadınların sayı kişilərdən 3,7 dəfə azdır. Əgər 836 679 nəfər kişi fərdi sahibkarlıqla məşğul olursa, bu sahədə qadınların sayı 225 858 nəfər təşkil edir. Yalnız təhsil sahəsində fəaliyyət göstərən qadınların sayı kişilərdən 1,8 dəfə çoxdur”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb. Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Azərbaycanda xüsusi karantin rejiminin müddəti 2022-ci il martın 1-dək uzadılıb.

---

■ Buradan bir daha bəyan edirəm ki, növbədənkənar seçkilər keçirilməyəcək və nöqtə. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) qrup iclasında çıxışı zamanı bildirib. Ərdoğan Türkiyədə prezident və parlament seçkilərinin qanunla müəyyən olunmuş vaxtda keçiriləcəyini vurğulayıb. “Türkiyə hüquq dövlətidir. Hansı tarix müəyyən edilibsə, seçki həmin tarixdə keçiriləcək”, - Ərdoğan qeyd edib.

---



■ Azərbaycan Milli Avarçəkmə Federasiyasının (AMAF) hesabat-seçki konfransı keçirilib. İclasda gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək konfrans iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb. Sonra AMAF-ın İdarə Heyətinə yeni seçki keçirilib. “Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov federasiyanın yeni prezidenti seçilib. O, bu postda Elçin Zeynalovu əvəzləyib.

---

■ Bakı Dövlət Universitetinin Tədris prosesinin təşkili şöbəsinin müdiri dosent Adil Xasayev vəfat edib. Universitetin mətbuat katibi Günel İsgəndərova bildirib ki, Adil Xasayev COVID-dən dünyasını dəyişib. A. Xasayev 150-dən artıq elmi əsərin, o cümlədən 2 monoqrafiya, 5 dərslik və 10-dan artıq metodik göstəriş və proqramların müəllifi olub.

---

■ “Bakı Metropoliteni” QSC-nin Elektromexanika xidmətinin su təchizatı sahəsinin elektrik mexaniki iş başında vəfat edib. 1965-ci il təvəllüdlü Eldar Süleymanov bu gün səhər saatlarında ”Elmlər Akademiyası” stansiyasında özünü pis hiss edib. Dərhal ona təcili tibbi yardım xidməti çağırılıb. Təcili Tibbi Yardım xidməti çatana qədər həmin şəxs dünyasını dəyişib.

---



■ MDB ölkələrinin Rusiyanın Sankt-Peterburq şəhərində qeyri-rəsmi sammiti keçiriləcək Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

---

■ Bu ilin yanvar-noyabr aylarında Azərbaycanın ABŞ-la apardığı ticarət dövriyyəsinin həcmi 462,626 mln. ABŞ dolları təşkil edib ki, bu da 2020-ci ilin analoji dövrü ilə müqayisədə 24,7% azdır. Hesabat dövründə Azərbaycanın ABŞ-a ixracı 3,1 dəfə artaraq 65,698 mln. dollara çatıb. İdxal isə illik müqayisədə 33% azalaraq 396,928 mln. dollara enib.

# “Tərtər işi” - istintaq davam edir

**“Tərtər işi” yenidən açılır. Xəbər verildiyi kimi, istintaq qrupu tərəfindən “Tərtər işi” üzrə zərərçəkmiş kimi tanınan şəxslər və işgəncələrə məruz qaldığı iddia edilən hərbi qulluqçular, artıq Baş Prokurorluğa dəvət olunur. “Tərtər işi” müxtəlif aspektlərdən təhlil olunur. Maraqlıdır, hüquqları pozulan hərbçilərin yenidən bu sistemə qayıtması nə dərəcədə real ola bilər, qanunvericilik buna imkan verirmi? Bu barədə hafta.az-a danışan hüquqşünas Vüqar Dadaşov “Tərtər işi” ilə bağlı yeni yaradılan istintaq qrupu və hüquqları pozulan hərbçilərin yenidən bu sistemə qayıtmasının hüququ reallıqlarına diqqət çəkib.**

Hüquqşünas bildirir ki, cinayət məsuliyyətindən azad edilmiş, yaxud cinayət işinin aparılmasına xitam verilmiş, bəraət qazanmış şəxslərin iş fəaliyyətinin bərpası qanunvericiliklə müəyyən olunur. Bu insanın cinayətinin hərbi xidmətdə və yaxud başqa istehsalat sahəsində baş verməsinin fərqi yoxdur. Hərbi xidmət də özü bir əmək fəaliyyəti sayılır. “Əgər vətəndaşın, hərbçinin fəaliyyətində hər hansı bir qanun pozuntusu olmayıbsa, onun barəsində qaldırılan cinayət faktı öz təsdiqini tapmayıbsa, təbii ki, o, hərbi xidmət də daxil olmaqla vəzifəsinə qaytarıla bilər.

Əgər vətəndaş hər hansı bir dövrdə həbsdə olubsa və təqsirli şəxs kimi ona elan olunmuş cinayət öz təsdiqini tapmayıbsa, həmin şəxs həbs dövründə itirilmiş əmək haqqını tam şəkildə və eləcə də maddi və mənəvi ziyanın tələbini qoya bilər. Bu təzminatın ödənilməsi də qanunvericiliyimizdə öz əksini tapıb. Son dövrlər məhkəmə praktikası da göstərir ki, məhkəmə vətəndaşlarımızın tərəfində, elə həbçilərimizin tərəfində olur və məsələ müsbət həll olunur”.

V.Dadaşov hesab edir ki, “Tərtər işi” adını alan məsələ ilə bağlı konkret fikir bildirmək hələ ki, mümkün deyil. Bu iş mürəkkəbdir və bilinməyən qaranlıq tərəfləri var: “Yeni detalların, halın ortaya çıxması, qanunvericilikdə cinayət işinin yenidən, təkrar baxışına icazə verir. Bu gün sevindirici haldır ki, “Tərtər işi” də yenidən məhkəməyə qaytarılıb. Məsələnin bu şəkildə yenidən açılmasını ancaq alqışlamaq olar. Müsbət haldır ki, dövlət və prokurorluq bu məsələnin vacibliyini dəyərləndirib və təkrar istintaqın aparılmasına qərar verib. Və indi biz nəticəni gözləməliyik”.



> “
> *Son dövrlər praktika göstərir ki, məhkəmə vətəndaşlarımızın tərəfində, elə həbçilərimizin tərəfində olur*

> *Prosesin yaxın aylarda nəticələnəcəyini gözləmək sadəlövhlükdür*

Maraqlıdır, “Tərtər İşi”nin yenidən qaldırılmasına səbəb nədir? Bu məhkəmə işi niyə baş vermişdi və nəyə görə yenidən açılır?

■ **Bu barədə hərbi ekspert Elxan Şıxəliyev danışır. O bildirib ki, ilkin istintaq araşdırmalarının nəticələri uzun müddətdir cəmiyyətdə böyük narazılıq yaradıb.** Bu narazılığın səbəbi birinci araşdırmada adıkeçən və yaxud istintaqa cəlb olunan şəxslərin birinci istintaqa cəlb olunma səbəblərinin aydınlaşdırılması üzərində olub: “Sonrakı mərhələdə məhkəmə qərarına əsasən bəraət almış şəxslər var idisə, onların ailələrinin zərərçəkmişlərin hüquqlarının tələb etməsi əsasında idi. İstənilən halda üç qurumun birgə tərtib elədiyi istintaq komissiyası həm birinci istintaqda aparılan məsələləri yenidən araşdıracaq, ondan əlavə birinci prosesdə istintaqa cəlb olunmayan şəxslərin şahid ifadəsinin alınması ilə irəli sürülən tələblərin nə qədər haqlı, yaxud haqsız olması ilə bağlı yenidən məhkəmə qərarları çıxaracaqlar”. E.Şıxəliyev hesab edir ki, məhkəmə qərarları iki yöndə ola bilər: “Birincisi, bu, məhkəmə qərarlarında öz əksini tapan qərarların yenidən dəyişməsi ilə müşahidə oluna bilər. Eləcə də orada cəzalandırılmış şəxslərə bəraət verilməsi və yaxud həbs hökmü kəsilmiş hərbçilərə bəraət verilməsi, zərərçəkənlərə təzminatların verilməsi yönündə dəyişiklik ola bilər. Yaxud, əlavə istintaqa cəlb olunan şəxslərə yenidən məhkəmə qərarlarının verilməsi ilə nəticələnə bilər”. Hərbi ekspert hesab edir ki, bu, çox böyük proses olacaq. O, birinci araşdırma məsələsində prosesə həddən artıq şahidlərin və istintaqa cəlb olunanların adlarının keçdiyini nəzərə alaraq prosesin yaxın aylarda nəticələnəcəyini gözləməyi sadəlövlük saydı. Ekspert hesab edir ki, yenidən iş araşdırılmağa başlasa, ən azı nəticələrin ortaya qoyulması uzun müddət çəkəcək:

“Belə bir reallıqda istintaq heyətinin birbaşa Baş Prokurorluğun nəzarətində aparılması müsbət ümidlər yaradır. Birinci mərhələdə istintaqı hərbi prokurorluq aparmışdı. İkinci istintaq Baş Prokurorluğun nəzarətində olduğu üçün və Milli Təhlükəsizlik, Daxili İşlər Nazirliyi mütəxəssislərinin cəlb olunması o qənaəti yaradır ki, istənilən bu araşdırma birinci məhkəmə qərarlarından fərqli olacaq”.

✍ ***Tahirə***

# Dollar - lirə qarşıdurması

## Valyuta



***Həftəyə maraqlı hadisələrlə başladıq. Qardaş Türkiyədə neçə vaxtdan bəri ölkənin iç gündəmini qara gölgəyə bürüyən inflyasiya və dolların sürətlə yüksəlişi Prezident Rəcəb Tayyib Ərdoğanın sadəcə xalqa bir müraciəti ilə sona çatdı. Elə türk mütəxəssislərdən birinin də dediyi kimi, raket sürəti ilə yüksələn dollar paraşütsüz yerə çırpıldı. Az qala, 20 lirəyə çatan dolların məzənnəsi 12 lirə səviyyəsinə endi. Təbii ki, paralel olaraq qızıl da ucuzlaşdı və prosesin davam edəcəyi barədə söyləntilər var. Siyasi müxalifətin və xarici ölkələrdəki bədxahların sevincini gözlərində qoyan bu proses Türkiyədə çox şeyi dəyişib: bazarda qiymətlərin ən azı 20 faiz endirilməsinə start verilib və artıq bir sıra avtomobil şirkətləri, kimya sənayesi müəssisələri istehsal etdikləri məhsulun bazar qiymətində 20 faiz endirim edəcəklərini bildiriblər, əhalinin bütün qruplarının maaş, pensiya və təqaüdündə artımların hesablanmasından, vergilərin azaldılmasınadək addımlar atılır və sair. Bir sözlə, xalqın üzü gülməyə, müxaliflərin və Türkiyə əleyhdarlarının ürəyi qan ağlamağa başlayıb.***

Bu müstəvidə Türkiyənin tanınıb-seçilən iqtisadçıları, maliyyə uzmanları proseslə bağlı gözləntilərini bölüşməkdədirlər. Onlardan bəzilərinin fikirlərini maraqlı olar deyə, oxucularımızla paylaşırıq:

■ **Ayvansaray Universitetinin rektoru, iqtisadçı professor Əmrə Alkin deyir ki, dövlət başçısının açıqlamaları maliyyə bazarına təsirini göstərib və nəticələri göz önündədir. Buna baxmayaraq, o qeyd edir ki, lirənin dəyər qazandığını görüb yığdığı dolları satan insanlara yanaşı, bankların hələ də xeyli miqdarda valyuta satdığını düşünür.** Əvvəllər Mərkəzi Bank tərəfindən edilən müdaxilələrin indiki kimi, ciddi nəticə vermədiyini xatırladan professor məhz bu səbəbdən hökumətin daha radikal addımlar atdığını dilə gətirib: "İndiki vəziyyətdə hökumətin valyuta qarşısında aciz qalan vətəndaşın itkilərinin yerini doldurmaq üçün xəzinədən ödəmə ayıracağını başa düşürəm. Bəlli faizlərdə lirə ilə depoziti olanlara veriləcək bu ödəmələr, həm də bankların mənbə güzəştlərindəki faiz problemini aradan qaldırmaq məqsədi güdür. Kredit faizləri ilə depozit faizləri arasındakı fərq uzun zamandır hamını narahat etməkdəydi". Professor Alkın deyir ki, əslində, hökumətin bu gün verdiyi çözüm qərarı 1994-cü ildə verilmiş qərara çox bənzəyir. O zaman vətəndaşlara onları qane edəcək faizlər birbaşa ödənilmişdi. Bu gün isə məzənnə nəzərə alınır və dolayısı yolla ödənilir. Müsahib bildirir ki, bu, bir yandan risklidir, çünki vətəndaşın tam inanıb arxayınlaşması lazımdır. Amma digər tərəfdən də, bu həddindən artıq faiz yükü altında qalmamaq üçün müəyyən şərtlər daxilində ağıllı həll yolu sayıla bilər.

"Edilən həmlə iqtisadi etimad müstəvisində son dərəcə vacibdir. Burada ixracatçıya fərqli məzənnə təklif olunur. Bu da etimad üçündür. Vətəndaşa dolayı yolla yüksək faiz təklif edildiyi halda, sərmayədara birbaşa və aşağı faizli kreditlərin verilməsi nəzərdə tutulub. Valyuta qazancı əldə edənlərlə digər iqtisadi mənbələrə fərqli məzənnələr tətbiq ediləcəyi hiss olunur" deyən professora görə, çoxları açıqlanan paketi tam başa düşməyib. Ona görə də, detallar tam üzə çıxdıqca insanlar daha rahat olacaqlar və təbii ki, dövlətin uğurları da artacaq.

■ **Professor Mustafa Karataş isə dolların enişinin baza təsiri olub-olmayacağından söz açır və bu müstəvidə Mədinə bazarından sitat gətirir: "Vaxtilə Mədinə bazarında yəhudilər böyük imkanlara sahib idilər.** O vaxt Peyğəmbər əfəndimizin düşüncəsində və İslamın əsas bazasında Mədinə bazarı etalon sayılırdı. Tacir anlayışının da ilk dəfə məhz peyğəmbərimiz ortaya atıb, satışda aldatmaları yasaqlayıb. Peyğəmbərimiz deyib ki, qaydaları qoyan da, nəzarət edən də dövlətdir. Hesab edir ki, pulun da əxlaqı olmalıdır. Peyğəmbərimizin zamanında başqa dinin pulundan istifadə edilib. Onun bir qaydası da o olur ki, bazara gələn malı yolda qarşılayıb, qiymətini artırmaq yanlışdır və olmaz. Hesab edirəm, Mədinə bazarından götürməli olduğumuz çox örnək var. Mal və sərmayə İslamda qiymətlidir, pul isə sadəcə vasitədir. Bazarlarımızda yoxlamalar, doğru-düzgün və aldatma olmadan davam etdirilməlidir. Heç kim bilmirdi ki, koronavirus yaranacaq. Qısa qıtlıq dönəmi oldu, insan övladı hər şeyi görür və görəcək. Əsas odur, tacirlər və alıcılar hiyləyə baş vurmasınlar", - M.Karataş deyir.

■ **Məşhur iqtisadçı İslam Məmiş isə deyir ki, əslində, dollarda psixoloji dəstək səviyyəsi 12,50 lirə idi. Hansı ki, eniş bu səviyyədən də aşağıdadır. "12, 10 səviyyələrinə qədər geriləyən məzənnəni gördük.** Önümüzdəki 3 həftə çox önəmlidir, çünki proses davam edərsə, dolların məzənnəsi 9-10 lirəyədək geriləyə bilər və təbii ki, bu da heç kimə sürpriz olmamalıdır. Amerika FED-in faizartırma prosesi kimi səbəblərdən dolayısı təkrar özünə gələ bilər. Odur ki, dalğalı məzənnə siyasətini görə bilərik. Qızılın qiyməti 1050 lirəni keçmişdi, amma orada da ucuzlaşmanı görürük. Dünyada ciddi bir infilyasiya gedir, sabah ABŞ-da iqtisadiyyatın böyüməsi haqqında açıqlama verilsə, mütləq qızılın qiymətində tərəddüdün şahidi olacağıq. Hesab edirəm, indiki ucuzlaşma fonunda vətəndaşlar ağıllı hərəkət etməli, yaranmış fürsətdən faydalanmalı, kimin valyuta ilə borcu-filanı varsa ödəməlidir", - deyən İ.Məmiş əlavə edir ki, vətəndaşlar bundan sonra sosial mediada gedən xəbərlərin ciddiliyinə də fikir verməli, hər deyilənə uymamalıdır.

Yanvar ayına eyham vuran iqtisadçı deyir ki, o, hökumətdə müəyyən dəyişikliklərin baş verəcəyini gözləyir. Bunun ardınca ölkə xarici siyasətdə mühüm dəyişikliklərin şahidi olacaq. Bunlar da öz növbəsində, iqtisadiyyatın dinamikliyinə müsbət yönümdə təsir göstərəcək. Nəticədə də lirə xeyli sabitləşərək, nəfəs alacaq. "Bir çoxları hesab edirdilər ki, dollar bu minvalla daha da bahalaşacaq və küyə düşüb 17-18 lirədən dollar aldılar. İndi dollar 30 faizdən çox dəyər itirib və bu da o deməkdir ki, həmin vətəndaşlar 30 faiz zərərə düşüblər. Hər halda, onlar ümidlərini üzmədən prosesin necə gedəcəyini gözləyəcəklər. Yəni "dollar yenə bahalacaq" arzusuyla yaşayacaqlar. Buna baxmayaraq, hesab edirəm ki, ümumi müstəvidə insanlar yastıq altına yığdıqları qızılları, dollarlarını satmağa başlayacaqlar. Satışlar sürətləndikcə məzənnə daha da aşağı istiqamətlənəcək. Bu hökumətin tətbiq etdiyi yeni bir modeldir. Mütləq Türkiyənin büdcə kəsiri mənfidən müsbətə dönəcək və bundan sonra ölkə iqtisadiyyatında normallaşma daha da sürətlənəcək, lirənin etibarlılığı və paralel olaraq dəyəri də yüksələcək", - deyən İ.Məmiş prezident Ərdoğanın Yaxın Şərqdəki sərmayədarların yatırımları haqda danışdıqlarını xatırladır. İ.Məmiş dövlət başçısından sitat gətirərək deyir ki, 2019-cu ildə də iqtisadiyyatda dalğalanmalar yaşanıb. Burada önəmli olan vətəndaşların verəcəyi reaksiyadır. "Dövlət mütləq mənada öz maliyyə qaynağını təmin edəcək. Bu gün dövləti aciz göstərmək və etibarsızlaşdırmaq, sosial media üzərindən aparılan təxribatın bir hissəsidir. İnşAllah, irəlidə Yaxın Şərqin sərmayələrini ölkəmizdə görəcəyik. Önümüzdə 3 ay kimi bir müddət var, başa çatsın, mütləq məzənnələr sabitləşəcək. Son vaxtlar fürsətçilik yaranmışdı, kimlər açıq-aşkar məhsulun qiymətini qaldırır, kimlər isə nəfsinin əsiri olaraq bir az da irəli gedir - məhsulu satışdan yığışdıraraq anbarlarda gizlədib, qıtlıq yaradaraq qiyməti daha da artırmağa çalışırdı. Bunlardan da hesab sorulacaq. Prezidentin bir sözü vardı: belələrinin göz yaşlarına baxılmayacaq. Lirə dəyərdən düşdü deyə, məsələn, 25 faiz əvəzinə 100 faiz qiyməti qaldıranlar var və dövlət bunlardan mütləq hesab sormağa başlayacaq", - İ.Məmiş deyir.

İ.Məmiş onu da bildirir ki, önümüzdəki bir ay ərzində dolların məzənnəsi bir az da enərək 9,65 səviyyəsinə geriləyə bilər. Əlbəttə, qızıl da yerində saymayacaq, 1 qram qızılın qiymətinin 585 lirəyədək enməsi gözlənilir.

■ **Londonda yerləşən Bluebay Fondunun İnkişaf Etməkdə olan Bazarlar üzrə mütəxəssisi Timoti Eş - hansı ki, o, Türkiyəyə bu çətinlikdən çıxmaq üçün BVF-yə müraciət etməyi məsləhət görmüşdü - Ankaranın son addımından yaxşı mənada heyrətləndiyini gizlətməyib.** İngilis mütəxəssis bildirir ki, Türkiyə hökumətinin məlum qərarına bircə sözlə münasibət bildirə bilər - inanılmaz! O deyir ki, 30 ildir iqtisadiyyat sahəsində çalışır, ömrünü qlobal iqtisadi-maliyyə sektorlarında araşdırmalara həsr edib, amma bu müddətdə heç vaxt Ankaranın son həmləsi kimi bir halla rastlaşmayıb.

*✍ Vüsal Tağıbəyli*

# Azad olunmuş ərazilərdə işləmək istəyənlərin nəzərinə

***Hazırda xeyli sayda Vətən Müharibəsi iştirakçısı və qazi aidiyyəti qurumlar tərəfindən işlə təmin olunacaqları günü gözləyirlər. Onların arasında işğaldan azad olunmuş rayonlar üzrə qeydiyyatda olan işsizlərin sayı da kifayət qədərdir. Həmin şəxslər azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində yaxından iştirak etmək istəyirlər.***



Bununla bağlı hara, necə müraciət, hansı sənədlərin aidiyyəti üzrə təqdim edilməli olduğunu bilmirlər.

■ **Məsələ ilə bağlı hafta.az-a danışan Dövlət Məşğulluq Agentliyinin mətbuat xidmətinin rəhbəri Əsmər Nəcməddinqızı bildirib ki, işğaldan azad olunmuş ərazilərdə işləmək istəyən vətəndaşlar Məşğulluq Alt Sistemindəki vakansiya bankından həmin ərazilərdə təklif olunan iş yerləri ilə tanış ola bilərlər:**

"Vətəndaş yaşadığı rayon üzrə məşğulluq filialına yaxınlaşmaqla da həmin vakansiyalar barədə məlumat əldə edə bilər. İş axtaranın elektron sistemə çıxışı varsa, özü e-sosial.az portalı üzərindən Məşğulluq Alt Sisteminə daxil olaraq işsiz və iş axtaran kimi öz qeydiyyatını apara bilərlər. Hazırda Məşğulluq Alt Sistemindəki vakansiya bankında işğaldan azad olunan ərazilər üzrə aktiv vakansiya və iş imkanı mövcuddur. Bunun üçün hər hansı sənəd təqdim etməyə ehtiyac yoxdur. Əgər vətəndaşın bizim sistemdə qeydiyyatı yoxdursa, bu şəxs üçün münasib iş varsa göndəriş verməyə onu qeydiyyata alacaqlar. Yəni, ilk olaraq iş axtaran kimi qeydiyyatı aparılır. Daha sonra işsiz statusu vermək mümkündürsə, işsiz statusu verilir və paralel olaraq vətəndaş vakansiyalarla tanış olur. Onun üçün hansı iş münasibdirsə, vətəndaş barədə məlumatlar işəgötürən tərəfə ötürülür. İşəgötürən tərəfi bu namizəd qane edirsə, artıq növbəti prosedurla bağlı işlər aparılır.Yəni, bilirsiniz ki, biz işlə təminat prosesində vasitəçi rolunu oynayırıq. İşçi ilə bağlı yekun qərarı işəgötürən verir".

*✍ Sevinc*

# Kərə yağlarının ucuzlaşmayan qiymətləri

## İstehlak



***Ötən həftə hökumət kərə yağının qiymətinin artmaması ilə bağlı qərar qəbul edilib. Baş nazir Əli Əsədovun imzaladığı qərarla "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilib. Qərara əsasən, kərə yağı, süddən hazırlanmış digər yağların idxal rüsumuna tətbiq olunan güzəştin müddəti 31.12.2023 tarixinədək uzadılıb.***

Nazirlər Kabinetinin bununla bağlı yaydığı məlumatında qeyd edilir ki, qərarın qəbul edilməsi ilə kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalı üzrə rüsum güzəştinin qüvvədə olma müddətinin uzadılması nəticəsində istehlak qiymətlərində sabitliyin təmin olunması və kərə yağı məhsulları ilə təminatın səviyyəsinin qorunub saxlanılması proqnozlaşdırılır.

■ **"Hökumətin kərə yağı ilə bağlı verdiyi qərar bazarda heç bir rol oynamayacaq. Ona görə ki, bu sahə inhisardadır, yəni, idxal tam olaraq inhisarçının əlindədir. İidxalçının rəqibi yoxdur.** Bazarda rəqib olmadığından, idxalçı bazara istədiyi qiyməti diktə edir, heç bir tərəddüdlə üzləşmir". Bunu hafta.az-a açıqlamasında Nazirlər Kabinetinin dekabrın 17-də ölkəyə idxal edilən yağlarla bağlı qərarına münasibət bildirən iqtisadçı-ekspert Akif Nəsirli bildirib.

Onun sözlərinə görə, kərə yağının qiymətinin hər gün bahalaşması məsuliyyətinin bir hissəsi hökumətin bu qərarının icrasına nəzarət edən qurumların üzərinə düşür. Ekspert hesab edir ki, bu sahəyə nəzarət etməyə məsul olan qurumların işbazların özbaşınalığına göz yumması, onlara şərait yaratması nəticəsində möhtəkirlərin hökumətin mövcud qərarına kağız parçası kimi yanaşmasına gətib çıxarıb.

"Hökumət kərə yağının qiymətini minimum həddə saxlamaqla, ƏDV-dən azad etməklə, idxal rüsumunu artırmamaqla çalışır ki, ölkə daxilində kərə yağının qiyməti aşağı düşsün. Bu, normal bir mexanizmdir, hökumətin əlindən gələni etməsidir. Hökumət onu da bilməlidir ki, kərə yağının idxalçıları da digər seqmentlərin idxalçısı kimi inhisarçılardır.

İnhisarçılıq da elə bir amildir ki, burada bazara tək sahib olan adam, sahibkar heç zaman qiyməti bahalaşdırmaqda tərəddüd etmir. Yəni bazarda onun rəqibi olmadığına görə, həmin məhsula istədiyi qiyməti qoyur. Məsələ burasındadır ki, bazar iqtisadiyyatı mexanizminin normal işlədiyi ölkələrdə inhisarçılıq minimumdur, bazarda rəqabət mühiti var, ona görə də sahibkar qiymətləri qaldırarkən çox geniş spekrtli tədqiqatlar, araşdırmalar aparır ki, qiyməti qaldırmaqla rəqiblərə uduzaram ya yox.

Ona görə də o cür rəqabət mühiti olan ölkələrdə sahibkarlar, adətən, qiyməti qaldırmaqda maraqlı olmur, hətta qiymətləri mümkün qədər aşağı salmaqda maraqlı olur. Qiymətlərin aşağı salınmasında və keyfiyyətin yüksəldilməsi sahəsində də rəqibləri ilə mübarizə aparırlar. Çox təəssüflər olsun ki, Azərbaycanda inhisarçılıq olduğuna və rəqabət mühiti zəif olduğuna görə, sahibkarlar çox asanlıqla qiymətləri istədikləri qədər qaldırırlar. Hökumətin bu qanunsuz qiymət artımına qarşı heç bir qanuni təsir vasitələri, rıçaqları yoxdur. Düzdür, bazar iqtisadiyyatında hökumətin qiymət qoymaq məsələsi yoxdur, qiyməti bazar tənzimləməlidir. İki il bundan əvvəl belə bir informasiya yayılmışdı ki, Yeni Zellandiyada kərə yağının qiyməti qalxıb. Onu əsas gətirərək qiyməti təxminən 30 faiz bahalaşdırdılar.

Şəxsən özüm araşdırma aparmışam və aydın olub ki, həmin dövrdə Yeni Zellandiyada kərə yağının qiyməti heç də qalxmayıb. Azərbaycana Yeni Zellandiyadan idxal olunan kərə yağının qiymətində bu ölkədə heç bir dəyişiklik olmayıb.

Sadəcə olaraq yağ idxalçıları məqsədyönlü şəkildə qiymətləri bahalaşdırmaq üçün hətta dezinformasiyaya əl atmaqdan çəkinmirlər. Belə bir şəraitdə dövlət nə güzəşt etsə də, daxili bazara təsir etməyəcək. Bununla bağlı dövlətin yegənə yolu bazarda rəqabət mühitini formalaşdırmaqdır, inhisarçılığı aradan qaldırmaqdır. Əgər hökumət istəyirsə ki, Azərbaycanda kərə yağının qiyməti normallaşsın, tənzimlənsin, o zaman ölkəyə kərə yağı idxalını inhisardan çıxarmalıdır. Çalışmalıdır ki, çoxsaylı sahibkarlar kərə yağını idxal etsin, təkcə bir sahibkar etməsin. Əks təqdirdə, qiymətlər aşağı düşmək əvəzinə, yenə də bahalaşacaq, çünki bahalaşma bütün dünyada gedir".

A.Nəsirov habelə vurğulayıb ki, beynəlxalq normalara görə hər bir insan il ərzində 400 litr süd istehlak etməlidir:

"Azərbaycandakı istehlak səbətində isə bunun həcmi 200 litrdir. Bu o deməkdir ki, Azərbaycan vətəndaşının südə olan illik tələbatının ən yaxşı halda 50 faizini yerli istehsal ödəyə bilir. Bu siyahıda kərə yağı isə təxminən, 30-40 faiz yerli istehsal hesabına ödənilir. Digər tərəfdən, hazırda bizim iri komplekslərimiz yoxdur ki, kərə yağı istehsal etsinlər. Bizdə adətən bu sahə xırda istehsalçıların ümidinədir. Əgər bu gün bazarı araşdırsaq görərik ki, bazarda kərə yağı çox az həcmdədir. Kilosu 20-22 manata satılan kərə yağı istehlak etmək artıq çox adamın cibinə uyğun deyil. İnsanlar daha çox marqarin və digər yağları alıb kərə yağı adı ilə istifadə edirlər".

> “
> *Hökumətin kərə yağı ilə bağlı verdiyi qərar bazarda heç bir rol oynamayacaq*
>
> *Hazırda bazarda kərə yağına olan tələbat böyük etibarilə xaricdən idxal olunmuş məhsullar hesabına təmin olunur*

■ **"Hökumətin kərə yağının artmaması ilə bağlı verdiyi qərar düzgün qərar idi. Hazırda bazarda kərə yağına olan tələbat böyük etibarilə xaricdən idxal olunmuş məhsullar hesabına təmin olunur.** Dünya üzrə infilyasiya meyillərinin güclənməsi, dünyada artan qiymətlər idxal məhsullarının ölkəyə gətirilməsi zamanı da kifayət qədər qiymət artımlarının yuxarı səviyyədə olmasını göstərir. Buna görə də Azərbaycan hökuməti mövcud qiymət artımlarının qarşısının alınması məqsədilə 15 faizlik gömrük rüsumlarının 5 faiz səviyyəsində daha 2 il müddətinə saxlanılması ilə bağlı qərar verib". Bu fikirləri hafta.az-a açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bu gün ölkəmizdə kərə yağlarının istehsal səviyyəsi heç də arzuolunan həddə deyil: "Tələbatın böyük əksəriyyəti idxal məhsulları hesabına ödənilir. Hesab edirəm, qiymət artımına mane olacaq daha dayanıqlı vasitə yerli istehsala nail olunmasıdır. Bunun üçün əlverişli biznes mühitinin yaradılmasına, liberal iqtisadiyyatın formalaşdırılmasına, kənd təsərrüfatı subyektlərinin yaradılmasına və bu sahəyə güzəştli kreditlərin ayrılmasına böyük ehtiyac var".

Ekspert onu da vurğulayır ki, kərə yağının idxalı nəticəsində hər il ölkədən böyük miqdarda vəsaitlər çıxır: "Belə ki, təkcə bir rüb üzrə olan idxal səviyyəsi təxminən 20 milyon dollarlıq vəsaitin ölkədən çıxması ilə nəticələnir. Ortalama götürsək, ötən ilin bir rübü ərzində təxminən 4 min tonluq kərə yağı və bu qəbildən olan digər yağ məhsulları idxal olunub. Bu da qeyd etdiyim kimi, 20 milyon dollarlıq vəsait hesabına icra edilib.Düşünürəm ki, bu illik göstəricidə 100 milyona yaxın vəsaitin ölkədən çıxmasına, hətta hazırkı statistika məlum olmadığından daha böyük miqdarda pul kütləsinin ölkədən çıxması ilə nəticələnir. Məhz bu vəsait hesabına əgər istehsal sahələrinin yaradılmasına nail olunarsa, bu vəsait təbii olaraq ölkəmizə qalmış olar".

*✍ Sevinc*

# Dövlət sifarişli binalarda mənzillərin qiymətı

## Araşdırma



***Ötən illərlə müqayisədə Azərbaycanda tikinti bumu xeyli səngiyib. Paytaxt Bakıda əvvəlki kimi sürətli tikinti işləri aparılmır. Hazırda tikintisi aparılan binaların əksəriyyəti təməli ötən illərdə qoyulan tikililərdir. Bu faktı statistik məlumatlar da təsdiqləyir. Məsələn, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin yanvar-iyul aylarında Azərbaycanda istismara verilən yaşayış evlərinin ümumi sahəsi 1 milyon 201 min kvadratmetr təşkil edib. Bu da 2020-ci ilin müvafiq dövrünün göstəricisindən 56,7 faiz azdır. Cari ilin yanvar-iyul ayları ərzində yaşayış evlərinin tikintisinə kapital qoyuluşları 537,3 milyon manat (azalma 28,3 faiz) təşkil edib.***

2020-ci ildə isə Azərbaycanda istismara verilən yaşayış evlərinin ümumi sahəsi 4 milyon 957,2 min kvadratmetr təşkil edib ki, bu da 2019-cu ilin göstəricisindən 47,6 faiz azdır. Qeyd edək ki, bu tikililər arasında özəl şirkətlərin payı çox olsa da, dövlət sifarişi əsasında tikilən binalar da var. Bu gün dövlət müxtəlif kateqoriyadan olan insanların mənzil şəraitini yaxşılaşdırmaq üçün müxtəlif ərazilərdə çoxmənzilli binalar inşa etdirir. Bir müddət əvvəl isə dövlət sifarişi əsasında tikilən binalarda qiymət xərcinin açıqlanması ilə bağlı təklif irəli sürülmüşdü. Hesab edilirdi ki, bu xərclər şəffaf şəkildə açıqlanarsa, bazardakı real vəziyyəti daha dolğun şəkildə analiz etmək mümkün olacaq. İndiyədək bu kimi sifarişləri yerinə yetirən şirkətlər layihə xərclərini detallı şəkildə açıqlamaqda maraqlı olmayıblar. Maraqlıdır, görəsən, dövlət sifarişi əsasında tikilən binanın 1 kvadratmetri neçəyə başa gəlir? Özəl şirkətlərə məxsus binalarla dövlət sifarişi əsasında tikilən binalara çəkilən xərclər arasında nə qədər fərq olur? Ümumiyyətlə, dövlət sifarişi əsasında indiyədək nə qədər bina istifadəyə verilib?

> “
> *Dövlət sadəcə satınalma yolu ilə müsabiqə keçirir və özəl şirkətləri bu prosesə cəlb edir*

### Satınalma prosesi tam şəffaf deyil

■ **Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı hafta.az-a açıqlamasında deyib ki, dövlət birbaşa mənzil tikmir:**

“Dövlət sadəcə satınalma yolu ilə müsabiqə keçirir və özəl şirkətləri bu prosesə cəlb edir. Satınalma müsabiqələrinin şəffaflığı ilə bağlı müəyyən suallar, təklif və iradlar zaman-zaman gündəmdə olub. Hətta bəyan olunub ki, bu müsabiqələr daha şəffaf keçirilsin. Bu istiqamətdə müəyyən ictimai nəzarət daha da gücləndirilsin və s. Hələ ki, biz ümumi qayda və prinsiplərə uyğun keçirilən müsabiqələr müşahidə edirik. Müşahidələr onu göstərir ki, analoji istiqamətlər üzrə özəl mənzil tikinti korporativləri tərəfindən inşa olunan mənzillərin 1 kvadratmetrinin dəyəri dövlətin sifarişçisi olduğu mənzillərlə müqayisədə daha ucuz başa gəlir. Burada müxtəlif səbəblərin olmasına dair müzakirə aparmaq mümkündür. Təəssüflər olsun ki, satınalma nəticələri ilə bağlı rəqəmlər açıq mənbələrdə olmadığına görə bu yöndə nəsə söyləmək mümkünsüzdür. Belə demək mümkündürsə, satınalma prosesi tam olaraq şəffaf deyil və yaxud satınalma prosesində iştirak edən tikinti şirkətlərinin icraçıları müsabiqəyə təqdim etdikləri rəqəmlərlə bağlı konkret olaraq xərc maddələrinin açıqlamaları göstərilmir. Yəni onlar satınalmaya qoşulurlar, iştirakla bağlı müraciət edirlər, təklif verirlər və həmin təkliflərdə müəyyən rəqəmlər açıqlayırlar, amma həmin rəqəmlərin konkret olaraq açıqlaması verilmir. Məsələn, hansısa tikinti şirkəti 2 bloklu 16 mərtəbəli bir yaşayış binasının başa gəlməsi üçün tutaq ki, 10 milyon manatlıq təklif verir. Bəs, bu 10 milyon manatın xərc maddələri necə bölüşdürülür? Bu məbləğin neçə faizi ilkin olaraq hazırlıq, neçə faizi tikinti, neçə faizi infrastrukturun qurulması və s. prosesə gedir? Yəni ortada ümumi rəqəm olur və xərc maddələri göstərilmir”.

### Xərclər, təxminən, 10-15 faiz şişirdilir

**Ekspert vurğulayır ki, bu tip layihələrdə xərclər təxminən 10-15 faiz şişirdilir: “2019-cu ilə qədər mənzil tikintisinin 1 kvadratmetrinə çəkilən xərclər bir qədər fərqli və aşağı idi. 2019-cu ildən sonra tikinti qaydalarının dəyişməsilə ümumi vəziyyət də dəyişdi.** Məsələn, bir tikinti şirkəti “Nərimanov”, “Gənclik” metro stansiyaları ətrafında bina tikmək istəyirsə, ilk növbədə, tikinti aparacağı ərazini almalıdır. Bu torpaq sahəsinin mülkiyyətdə olması vacib şərtdir. Mülkiyyətdə olan torpaq sahəsinin alınması əvvəlki qaydalarla müqayisədə tikintidə xərc maddələrinin artımına gətirib çıxarır. Tutaq ki, əvvəl tikinti şirkəti 30 sot torpaq sahəsini sərəncama alıb onun üzərində tikinti aparmaq üçün maksimum 1 milyon vəsait sərf edirdisə, indi 30 sot torpaqda konkret olaraq mövcud şərtlərlə götürsək, maksimum 8400 kvadratmetr tikinti aparmaq mümkündür. Burada rentabellik göstəriciləri olduqca aşağı olacaq və yaxud da ümumiyyətlə rentabelli olmayacaq. Ona görə tikinti şirkətləri daha böyük ərazilər almaq məcburiyyətindədir. Deyək ki, tikinti şirkəti 1 hektar ərazini Nərimanov, Gənclik istiqamətlərində minimum 12-13 milyona alırsa, həmin sahədə aparılacaq tikinti sahəsi maksimum 28 min kvadratmetrdir. Torpaq sahəsi alınarkən həmin tikintinin 1 kvadratmetri tikinti şirkətinə 445 manatdan baha başa gəlir. Bura sənədləşmə, tikinti xərcləri və s. əlavə etdikdə tikintinin 1 kvadratmetri 1000 manatı keçir.

Bu gün bazarda, əslində, yenitikililərin çox sürətlə qiymət artımının əsas səbəblərdən biri məhz bu məsələdir. Tikinti şirkətləri, təbii ki, torpaq sahəsini almağa məcburdur və torpaq sahəsinin ümumi tikinti portfelində payı çox sürətlə artır. Şəhərin mərkəzinə doğru getdikcə bu pay artmaqda davam edir. Məsələn, “Həzi Aslanov” metrosu yaxınlığında 1 hektar ərazini tikinti şirkəti 3 milyon manata alırsa, “Nərimanov”da bu rəqəm 12-13 milyon manat, “Sahil” metrosu yaxınlığında isə 50 milyon manatdan yuxarıdır. Bugünkü təhlillər onu deməyə əsas verir ki, tikintinin 1 kvadratmetrinin başagəlmə qiyməti 2017- 2018-ci ildəkindən, təqribən, 2 dəfə fərqlənir. Bu istiqamətdə, təxminən, 2 dəfə artım var”.

### Dövlət sifarişi ilə tikilən binalarda mənzillər ucuzdur...

■ **Mövzu ilə bağlı hafta.az-a danışan daşınmaz əmlak eksperti Elnur Fərzəliyev isə bildirir ki, dövlət sifarişi əsasında müxtəlif kateqoriyadan olan insanlar üçün tikilən mənzillərin sayı dəqiq məlum deyil.** Onun sözlərinə görə, bu proses hazırda da davam edir və mənzil növbəsində çoxlu sayda insan var: “Bu gün dövlət sifarişi əsasında məcburi köçkünlərə, müharibə əlillərinə, şəhid ailələrinə və s. mənzillər tikilir. Eyni zamanda, MİDA-nın sifarişi ilə çoxmənzilli sosial binalar tikilir. Təbii ki, bu işlərin hamısı dövlətin sifarişi əsasında ayrı-ayrı özəl şirkətlər tərəfindən icra olunur. Hazırda da bu istiqamətdə işlər aparılır deyə, ortada hansısa konkret rəqəm yoxdur. Təhlillər onu deməyə əsas verir ki, tikinti xərcləri ötən illərlə müqayisədə xeyli dərəcədə artıb. Tutaq ki, ötən illərə qədər tikinti şirkətləri üçün tikintinin 1 kvadratmetrinin xərci təxminən 250 manatdan 400 manata kimi də dəyişirdi. Daha VİP binalarda isə bu rəqəm bir qədər yüksək olurdu. Bu gün isə artıq xərc o deyil. Bir il ərzində tikinti materiallarının qiymətində kəskin artım müşahidə olunub. Əksər tikinti materiallarının qiyməti hətta 2 dəfəyə qədər bahalaşıb. Tikintinin qiymətini artıran amil həm də tikilinin yerləşdiyi ərazidir. Məsələn, bir tikinti şirkəti Xırdalanda və “Sahil” metrosu yaxınlığında eyni keyfiyyətdə iki bina təhvil verib. Şəhərdən kənarda yerləşən binada mənzilin 1 kvadratmetri 1000 manata, şəhərin mərkəzində isə 2000 manata təklif olunur. Mərkəzdə tikintiyə yararlı torpaq sahəsi olduqca bahadır. Təbii ki, torpağa çəkilən xərc də tikinti xərcinin üzərinə gəlinir.

Bu gün dövlət xətti ilə tikilən binalar var ki, qiymətlər fərqlidir. Məsələn, MİDA-nın satışa çıxardığı mənzillər mövcuddur. Həmin mənzillərin qiyməti o ərazilərdə digər tikinti şirkətlərinin təklifinə baxanda çox ucuzdur. Onlar torpağa pul verməyiblər və sadəcə tikinti, təmir xərcləri üst-üstə gəlinib və vətəndaşa da həmin xərclərə uyğun qiymət təklif olunub. Tutaq ki, MİDA mənzilləri Yasamalda təmirli vəziyyətdə 1 kvadratmetri təqribən 900 manata təklif olunur. Həmin ərazidə Şərifzadə küçəsinin yaxınlığında isə bu rəqəm 1600-2000 manat civarındadır. Demək olar ki, yarıbayarı qiymət fərqi var”.

> “
> *Tikinti xərcləri ötən illərlə müqayisədə xeyli dərəcədə artıb*

### Tikinti şirkətləri üçün hansısa yumşalmalar olmalıdır

**Ekspert onu da əlavə edir ki, hazırda paytaxtda əvvəlki illərdə olduğu kimi, sürətli tikinti müşahidə olunmur: “Bunun əsas səbəblərindən biri torpaq sahələrinin baha olmasıdır.**

Eyni zamanda, satışda köhnədən qalan ucuz evlər var. Həm də tikinti materiallarının qiyməti sürətlə arta-arta getməkdədir. Bu tendensiyanın nə vaxta qədər müşahidə olunacağı isə bəlli deyil. Bu gün kvadratı 1500 manata satışa başlayan şirkət sabah həmin mənzili 1700-1800 manata qaldırsa, ona alıcı yaxın durmayacaq. Lazımdır ki, burada bazar formalaşsın. Bu gün bazarda qeyri-sabitlik var. Digər tərəfdən, əksər tikinti materiallarının vergidən azad olunması vacibdir.

Tikinti şirkətlərinə dövlət tərəfindən hansısa yumşalmalar olmalıdır. Məsələn, hazırda paytaxtda tikinti üçün torpaq sahəsi məhduddur. Bakı şəhərində Fövqəladə Hallar Nazirliyi tərəfindən qəzalı olduğu qeydə alınan100-dən artıq bina var. Eyni zamanda, istismar müddəti başa çatan yüzlərlə bina mövcuddur. Bunlar mərhələli şəkildə sökülüb yerində yeni bina tikilməlidir. Bu işləri dövlət aparmır, nə də dövlət sifarişi ilə həyata keçirilmir. Əslində, dövlət prosesə nəzarət etməlidir ki, özəl şirkətlərlə sökülücək ərazidə yaşayan sakinlər arasında narazılıq yaranmasın”.

✍ ***Sevinc***

# “Təhsil eksperti” müzakirəsi

## Cəmiyyət

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

### Kim haqlıdır

**Azərbaycanda “təhsil eksperti” statusunu Təhsil İnstitutu verə bilər. Bu barədə Təhsil İnstitutunun direktoru Rüfət Əzimov bildirib. Onun sözlərinə görə, buraya müəllim, baş müəllim, metodist və ya təhsil eksperti statusları aiddir. Həmçinin direktor qeyd edir ki, bu günə qədər “Təhsil İnstitutu olaraq heç kimə “təhsil eksperti” (Chartered Educator) statusu təqdim edilməyib. Yaxın gələcəkdə proses başlaya bilər, hazırda xarici təcrübə öyrənilir.**

Bəs görəsən, müzakirə olunan dəyişiklik təhsil ekspertlərini qane edirmi? Bu qərar qəbul olunsa, kimlər təhsil eksperti statusunu daşıya bilməyəcək?

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Elçin Süleymanov hafta.az-a açıqlamasında bildirdi ki, “təhsil eksperti” məsələsi daha əvvəldən müzakirə olunur. Burada ümumiyyətlə tək təhsildən söhbət getmir. Ekspert dedikdə, həmin sahədən məlumatlı olan şəxs nəzərdə tutulur. Mən özümü təhsil eksperti olaraq görmürəm:** “Sadəcə tez-tez mediada bu cür təqdim olunuram. 5 ilə yaxın orta məktəbdə, 20 ildən artıq isə universitetdə müxtəlif vəzifələrdə fəaliyyət göstərmişəm. Hər zaman şagirdlərin, tələbələrin içində oluram. Bununla belə hansısa təhsillə bağlı mövzuya münasibət bildirən zaman araşdırma edib daha sonra danışıram. Bəzi təhsil ekspertləri var ki, hər mövzuya münasibət bildirirlər. Müsahibədən də aydın olur ki, şəxsin mövzu ilə əlaqədar elə də böyük bilgiləri yoxdur. Fikrimcə ekspert məsuliyyətli olmalıdır. Mən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ekspertiyəm. Orada ekspertin seçilmə prosesi, sahə üzrə kifayət qədər tədqiqat aparması, özünü tanıtdırması əsas götürülür. Düzdür, burada beynəlxalq səviyyəli ekspertin təyinindən söhbət gedir. Burada müvafiq sahədə təhsil də böyük rol oynayır. Ekspert məsələni araşdırır, dissertasiya yazır, anketlər, analizlər hazırlayır”. Ekspertin fikrincə, bizdə özünü təhsil eksperti kimi təqdim edənlər bunu daha çox reklam xatirinə edir. Buna görə də mən Təhsil İnstitutunun rəhbəri Rüfət müəllimi bu məsələdə dəstəkləyirəm: “Medianın və kütləvi informasiya vasitələrinin kimisə təhsil eksperti kimi təqdim etməsinə nəzarət isə mümkünsüz məsələdir. Media sərbəstdir. Fikrimcə, təhsil eksperti seçən zaman şəxslərin təhsilinə, tədqiqatlarına v s. baxılmalıdır. Bizdə bu sahədə kifayət qədər savadlı adamlar var. Asif Cahangirov, Şahlar Əsgərov, Etibar Əliyev kimi şəxslər öz təcrübələri, tədqiqatları və kitabları ilə təhsil sahəsində profesional ekspertlərdəndir”.

■ **Növbəti müsahibimiz olan təhsil sahəsi üzrə ekspert Nabatəli Qulamoğlu isə yeni müzakirələrə iradını bildirdi:** ”Təhsil eksperti” adının verilməsi hökumətin səlahiyyətində olsa, 1-ci mən orada yoxam, çünki bildiyim həqiqətləri söyləyirəm. Təhsil ekspertləri bu və ya digər yolla nazirlikdən yararlanırlar. Tənqid edəndə də təhsil nazirindən o yana keçmirlər. Onları Təhsil Nazirliyi özündən asılı vəziyyətə salıb. Elə Təhsil Nazirliyi yanında İctimai Şuranın tərkibinə baxsanız, bunu biləcəksiniz. Təhsil ekspertlərini media ilə müqayisə etmək olar. Qaldı adın verilməsinə, onu hansı parametrlərə istinad edib verəcəklər? Bu akt gerçəkləri söyləyən təhsil ekspertini susdurmaq məqsədi daşıyır - birbaşa mənə yönəlib. Deyə bilərsiniz: bax Etibar Əliyev naziri tənqid edir. Onun tənqidi də, tərifi də məqsədli və qərəzlidir”.

✍ ***Banu***

# Milli Qəhrəman Riad Əhmədov 65 illik yubileyində anıldı



**20 dekabr 2021 ci il tarixdə məktəbimizin fəxrlə adını daşıdığı Milli Qəhrəman Riad Əhmədovun 65 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib.**

Tədbirdə Milli Məclisin deputatı xanım Nigar Arpadarai, Səbail Rayon İcra Hakimiyyəti Başçısının müavini Kəmalə Həşimova, SRİH Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Qabil Vahidov, Dövlət Təhlükəsizliyi Xidmətinin Səbail Rayon İdarəsinin rəisi polkovnik Tuncay Məmmədov və əməkdaşları, ”ALYANS” Azərbaycan Xüsusi Xidmət Orqanlarının Veteranlarının İctimai Birliyinin sədri Fəxri Abasov və üzvləri, Riad Əhmədovun döyüş yoldaşları iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb, şəhidlik zirvəsinə ucalmış qəhrəman vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra şagirdlər qəhrəmanın həyat və döyüş yolu haqqında ətraflı məlumat veriblər, Riad Əhmədova həsr olunmuş səhnəcik, musiqi nömrələri təqdim ediblər”. Qayıt Riad” filmindən göstərilən fraqment maraqla izlənib.

Sonra qonaqlara söz verildi. Mili Qəhrəmanın döyüş yoldaşları onunla bağlı xatirələrini danışdılar, həmçinin Riadın şücaətindən söz açaraq gənc nəslə Riad Əhmədov kimi vətənpərvər, cəsur olmağı tövsiyə etdilər.

Səbail Rayon İcra Hakiminin müavini Kəmalə Həşimova, Riad Əhmədovun həmkarlarından olan veteran polkovnik Əli Orucov çıxış edərək həm Riad Əhmədovun misilsiz qəhrəmanlığından, Riad kimi qəhrəmanların ölməzliyindən həm də, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan oğullarının 44 günlük Vətən müharibəsindəki şanlı zəfər tarixindən söz açdılar.

Şagirdlərin hərbi vətənpərvər ruhda tərbiyə olunmasının zəruriliyini vurğuladılar və bu işdə məktəb kollektivinə uğurlar arzuladılar, gözəl çıxışlarına görə şagirdləri təqdir etdilər. Tədbirin sonunda Riad Əhmədovun döyüş yoldaşları polkovnik-leytenant Akif Rüstəmov və polkovnik-leytenant Rais Şabakayev tərəfindən məktəbin nümunəvi şagirdlərinə ”Alyans” Azərbaycan Xüsusi Xidmət Orqanlarının İctimai Birliyinin Fəxri Fərmanları təqdim olundu. Tədbir hər kəsdə xoş təəssürat buraxdı.

✍ ***Hafta.az***

# “Əsas məqsədimiz rəqəmsal mühitə qoşulmanı asanlaşdırmaqdır”

**Beynəlxalq Biznes Mükafatları nüfuzlu STEVIE mükafatının qaliblərinə təqdimat mərasimi keçirib. Azərbaycanın lider mobil operatoru “Azercell Telekom” MMC-nin nailiyyətləri STEVIE Beynəlxalq Biznes Mükafatlarının münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib.**

Xatırladaq ki, Azercell Əşyaların İnterneti (IoT) texnologiyaları əsasında az enerji tələbatlı sensorlar konsepsiyasının tətbiqi üzrə hazırlıq səviyyəsinə görə ”İlin ən innovativ şirkəti” nominasiyası üzrə Qızıl mükafata layiq görülüb. Mükafatın virtual təqdimat mərasimində çıxış edən ”Azercell Telekom” MMC-nin Prezidenti Zərinə Zeynalova etimad üçün münsiflər heyətinə təşəkkürünü bildirib. Xanım Z.Zeynalova Azərbaycanda Əşyaların İnterneti əsasında az enerji tələbatlı sensorlar konsepsiyasını tətbiq edən ilk şirkətin Azercell olduğunu vurğulayıb: ”Əşyaların İnterneti texnologiyasının təklif etdiyi geniş imkanlardan yararlanaraq daha rahat, rəqəmsal mühitə qoşulmanı asanlaşdırmaq və beləliklə innovativ həlləri abunəçilərimiz üçün əlçatan etmək - prioritet məqsədlərimiz sırasındadır. Azercell Telekom ölkə prezidentinin çağırışına əsasən işğaldan azad olunmuş ərazilərdə ”Ağıllı Şəhər” və ”Ağıllı Kənd” konsepsiyalarının gerçəkləşməsi üçün dövlət proqramına dəstək verməyə hazırdır.

Böyük qürur hissi ilə vurğulamaq istərdim ki, Azercell bu ərazilərdə mobil kommunikasiya infrastrukturunun qurulmasına başlayan ilk şirkətdir”

Dünya işgüzar aləmində ən mötəbər mükafatlardan biri olan STEVIE Beynəlxalq Biznes Mükafatlarının sahibləri 200-dən çox nüfuzlu biznes eksperti, şirkət sahibi və iş adamlarından ibarət beynəlxalq münsiflər heyətinin səsverməsi nəticəsində seçilir. Builki seçim zamanı ekspertlər Azercell-in ölkədə keçirdiyi bir sıra əhəmiyyətli layihə və təşəbbüsləri, insanların həyat keyfiyyətinin daha da yaxşılaşdırılması naminə texnoloji yeniliklərin tətbiqi istiqamətindəki səylərini qiymətləndiriblər. Hazırda 5 milyondan çox abunəçinin seçimi olan məhz ”Azercell Telekom” MMC ölkədə ilk olaraq ”Ağıllı şəhər” və ”Ağıllı kənd” layihələrində istifadə ediləcək qurğuların internet bağlantılarının təmin olunması üçün lazım olan şəbəkə infrastrukturunu sınaqdan keçirərək hazır vəziyyətə gətirib.




Azərbaycanın kommunikasiya sektorunda ilk dəfə ”Big Data” texnologiyasını tətbiq edən ”Azercell Telekom” MMC kommunikasiya dünyasının ən son yeniliklərinin ölkədə tətbiq etməklə, ən yaxşı müştəri təcrübəsi imkanlarını hamı üçün əlçatan etməyə çalışır.

Qeyd edək ki, ”Azercell Telekom” indiyədək dəfələrlə müxtəlif nominasiyalar üzrə ilin şirkəti seçilərək STEVIE mükafatına layiq görülüb. Müsabiqənin məqsədi dünyanın müxtəlif ölkələrində fərqli uğur qazanmış şirkətlərin tanıdılmasıdır.

# Ev heyvanlarının üzləşdikləri əsas xəstəliklər

## Baytarla söhbət



***Ev** heyvanlarına qulluq, əslində, bir növ uşaq baxımı kimi düşünülə bilər. Ailələr uşaqlarının qayğısına qaldığı kimi, eyni ilə, yemək-içmək, tualet ehtiyacları üçün heyvanlarına baxmalıdırlar. Ev heyvanları da uşaqlar kimi xüsusi diqqət tələb edir. Müntəzəm olaraq peyvənd etdirmək, çəki nəzarətini saxlamaq evcil dostlarına qulluq edənlərin yerinə yetirməli olduğu öhdəliklərdir. Ev heyvanları ilə oyun oynamaqla özünüz və onlar üçün keyfiyyətli vaxt yarada bilərsiniz. Arabir dəcəllikləri ilə sizi dəli edən, lakin sonda gözbəbəyinizə çevrilən heyvanlarınızın rahatlığı da son dərəcə əhəmiyyətlidir.*

Bu “dilsiz-ağızsız” canlılara qulluq etmək tək yemək və su verməklə kifayətlənmir. Əgər balaca dostlarınızın sağlamlığının qeydinə qalmaq istəyirsinizsə, onda mütləq mütəxəssis rəylərini nəzərə alın. Hafta.az-ın əməkdaşı, evcil heyvanlara qulluq və onların sağlamlığı ilə bağlı **baytar Adil Əsgərovla həmsöhbət** oldu. Müsahibəni sizlərə təqdim edirik:

***- İndi insanların ən çox üstünlük verdiyi evcil heyvanlar itlər və pişiklərdir. Mütəxəssis olaraq sizcə, itləri və pişikləri hansı intervalla veterinerə aparmaq lazımdır?***

- İt və pişiklərin cinsindən, qapalı və açıq ərazidə saxlanmasından, xarici mühit amillərindən, xidməti və ya ailə heyvanı olmasından və s. səbəblərdən asılı heyvanı baytar həkim müayinəsinə aparma intervalı dəyişkənlik göstərə bilir. Nəzərə alsaq ki, itlər və pişiklər mütəmadi olaraq (3-4 aydan bir) daxili parazitlərdən (endoparazitlər) qorunmaq üçün, profilaktik və ya müalicə məqsədilə preparatlar verilməlidir. Bu halda müayinə intervalını maksimum olaraq 4 aydan bir təşkil etməkdə fayda var. Bundan əlavə yarana biləcək həyati təhlükə daşıyan bir sıra xəstəliklərin erkən diaqnozunun qoyulması üçün ildə bir dəfə olmaqla, ”Check-Up” müayinələrinin aparılması xüsusi önəm kəsb edir.

***- Heyvan sahibləri daha çox hansı şikayətlər, yaxud xəstəliklərlə bağlı öz heyvanlarını sizlərin yanına müalicəyə gətirir? Belə xəstəlikləri hansı əlamətlərlə müəyyən etmək olar?***

- Ev heyvanları ilə bağlı heyvan sahibinin rahatlıqla sezə biləcəyi bir sıra əlamət vardır ki, müraciətlərində böyük qismi məhz elə bu əlamətlərlə bağlı olur. Həmin əlamətlərə qusma, ishal, iştahsızlıq və ya yemdən imtina, halsızlıq, normadan artıq qaşınma, asqırma, öskürmə, burun və göz nahiyələrində qeyri-normal axıntı, yaxud çirklənmə və s. daxildir. Daha çox rast gəldiyimiz xəstəliklərə misal olaraq isə qurd xəstəliklərini, xüsusilə peyvənd olunmayan heyvanlarda virus mənşəli infeksion xəstəlikləri, əsasən keyfiyyətsiz və düzgün olmayan yemləməyə bağlı olaraq həzm sistemi xəstəlikləri, dəri xəstəlikləri və s. misal göstərmək olar.

> *“ Marketlərdə satılan itvə pişik yemləri keyfiyyətcə ən aşağı sinif yem qruplarına daxildir*

***- İtlər arasında ən çox rast gəlinən xəstəlik hansıdır? Bunun insanlara - uşaqlara keçmə ehtimalı varmı?***

- İtlər arasında geniş yayılmış və fəaliyyətimizlə bağlı sıx qarşılaşdığımız bir sıra xəstəliklər var. Bunlara misal olaraq dəri xəstəliklərini ( müxtəlif etiologiyalı alopesiyalar, dermotidlər və s.), qida allergiyalarını (allergik dermotid, allergik konyunktivit, və s.), virusmənşəli xəstəliklər (taun, parvovirus və s.), qurd invaziyalarını (trematodozlər, sestodozlar, nematodozlar və s.) misal göstərmək olar.

Bir sıra xəstəliklər vardır ki, itlərdən insanlara və yaxud əksinə, insanlardan itlərə (zoonoz xəstəliklər) keçə bilər. Bunlara bakterial, virus, parazitar və göbələk mənşəli xəstəlikləri misal göstərmək olar, lakin itinizin profilaktik tədbirlərini vaxtında və düzgün qaydada icra etdikdə bu riski minimuma endirmiş olursunuz.

***- Marketlərdə satılan heyvan yemlərinin keyfiyyəti sizi qane edirmi?***

- Marketlərdə satılan it və pişik yemləri keyfiyyətcə ən aşağı sinif yem qruplarına daxildir. Bu yemlərin müəyyən insanlar tərəfindən alınaraq küçədə yaşayan sahibsiz heyvanlara verilməsi başadüşüləndir, lakin həmin yemlərin sahibli və ya selektiv cins heyvanlara verilməsi birmənalı olaraq məsləhət görülmür. Heyvan sahiblərinin daha üst sinif, balanslaşdırılmış yem tərkibinə sahib olan məhsullardan istifadə etmələri, birbaşa heyvanlarının sağlamlığında mühüm əhəmiyyət kəsb edir. Belə məhsulları isə baytarlıq apteklərindən və yem satışı həyata keçirən zoomağazalardan əldə etmək mümkündür.

Söhbət heyvan yeməklərindən düşmüşkən, bir məqamı da diqqətinizə çatdıraq ki, hazırda marketlərdə ən çox alınan heyvan yemlərinin qiyməti çəkiyə və istehsalçı şirkətlərə görə dəyişir. Ümumilikdə, qiymətlər heç də ucuz deyildir. Hazırda 2 kiloqramlıq it yemləri 11-12, eyniçəkili pişik yemləri isə 9-12 manatadır. Kiçikölçülü heyvan yemlərinin qiyməti isə 45-60 qəpikdən başlayaraq dəyişir. 10 kiloqramlıq kisələrdə olan heyvan qidaları 45 manatadır.

*✍ Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏŞƏKKÜRÜ



“Qarabağda rusiyalı sülhməramlıların olması sayəsində humanitar vəziyyət yaxşılaşıb”. Bunu Rusiya Prezidenti Vladimir Putin ölkənin Müdafiə Nazirliyinin geniş kollegiya iclasında deyib. “Artıq bir ildən çoxdur ki, sülhməramlılarımız Qarabağda sabitliyin qorunmasına kömək edirlər. Onların səyləri sayəsində humanitar vəziyyət yaxşılaşıb, bir sıra bölgələrin ərazisi minalardan təmizlənib, sosial infrastruktur obyektləri bərpa edilib, tarixi və mədəniyyət abidələri qorunub saxlanılıb”, - deyə Putin söyləyib. V.Putin sülhməramlı tapşırıqları yerinə yetirən şəxsi heyətə peşəkarlığına, dözümlülüyünə və möhkəmliyinə görə təşəkkür edib.

### Həftənin VERGİSİ



Amerikalı milyarder İlon Mask il ərzində vergi orqanlarına ödədiyi məbləği açıqlayıb. “Time” jurnalı tərəfindən 2021-ci ilin adamı elan edilən Maska qarşı münasibət birmənalı olmayıb. O, vergi ödəməməkdə ittiham edilib. Milyarder ittihamları rədd edərək milyardlarla dollar vergi ödədəyini və hələ də öz evinin olmadığını deyib: “Bu məsələ ilə bağlı narahat olanlara deyirəm: Mənim 2021-ci ildə ödədiyim vergi 11 milyard dollardan çox olub. Bu vergini ödəmək üçün əlavə tədbirlərə getməli olmuş və “Tesla”nın səhmlərinin bir hissəsini satmışam”.

### Həftənin PROQNOZU



““Omikron” ştamının yayılmasına baxmayaraq, koronavirus pandemiyası 2022-ci ildə başa çata bilər”. Bunu “Microsoft” şirkətinin qurucusu, milyarder Bill Qeyts deyib. Onun sözlərinə görə, tarixdə heç bir virus “omikron” variantı qədər sürətlə yayılmayıb. Qeyts güman edir ki, tezliklə “omikron” dünyanın bütün ölkələrində olacaq. İş adamı vurğulayıb ki, yeni ştam ciddi qəbul edilməlidir, çünki onun hansı simptomlara səbəb olduğu hələ məlum deyil. “Deltanın yarısı qədər ciddi olsa belə, bu, çox yoluxucu olduğu üçün gördüyümüz ən pis dalğa olacaq. Eyni zamanda, lazımi tədbirlər görsəniz, 2022 pandemiya üçün sonuncu il ola bilər”, - deyə milyarder Tvitter səhifəsində yazıb.

### Həftənin SOYĞUNU



Rusiyanın Krasnoyarsk şəhərində Anna Qriqoryeva adlı qadın çalışdığı bankı soyub. Hadisə dekabrın 6-da baş verib. 30 yaşlı qadın iş saatı başa çatandan sonra çantasına 15 milyon rubl (345 min AZN), 49 min dollar (660 min TL) və 49 min avro (750 min TL) dolduraraq işlədiyi bankdan çıxıb. Təhlükəsizlik kameraları vasitəsilə bankın öz işçisi tərəfindən soyulduğu aşkarlandıqdan sonra, görüntülər polisə təqdim edilib. Ümumilikdə yarım milyon manatdan çox pul oğurlayan qadının ölkədən çıxışına qadağa qoyulmaqla, Annanın axtarışlarına başlanılıb. O, 15 gün sonra polis tərəfindən saxlanılıb.

### Həftənin ÇAĞIRIŞI



Ukrayna Prezidenti Vladimir Zelenski Kiyevin Rusiya ilə istənilən formatda danışıqlara hazır olduğunu açıqlayıb. O, bunu Brüsseldə “Rada” kanalına açıqlamasında bildirib. Zelenski qeyd edib ki, “Şimal axını 2” qaz kəməri ətrafındakı vəziyyət buna kömək edə bilər. Zelenski açıqlamasında Azərbaycan və Ermənistan liderlərinin baş tutan görüşünü də xatırladıb. Ukrayna prezidentinin sözlərinə görə, Moskva ilə Kiyev arasında da nə vaxtsa belə olacaq.

### Həftənin ÇEMPİONU



Yunan-Roma güləşi üzrə Fransa klub çempionatına yekun vurulub. İslam Abbasovun heyətində yer aldığı ”Şiltgem” həlledici görüşdə ”Sarregimenes”lə qarşılaşıb. Millimizin üzvü 2 çəkidə çıxış edib. Həmyerlimiz əvvəlcə 86 kq-da erməni Zaven Mikaelyana tam üstünlüklə qalib gəlib - 8:0. Yarışın sonuncu görüşü İslam Abbasovla fransız Marius Mişon arasında keçirilib. Bu qarşılaşma ərəfəsində İslamın komandası 5:6 hesabıyla geridə olub. Məhz Abbasovun 94 kq-da Mişonu 9:0 hesabıyla məğlub etməsi sayəsində ümumi hesab bərabərləşib və əlavə göstəricilərə görə ”Şiltgem” Fransa çempionu olub.

*✍ Azad Əliyev*

## Bakıda “PAŞA Holding”in təşkilatçılığı və “Bakcell”in dəstəyi ilə İllik İnnovasiya Sammiti keçirilib

**Dekabr ayının 17-də Bakıda Korporativ İnnovasiya mövzusuna həsr edilmiş illik İnnovasiya Sammiti keçirilib. Azərbaycanda ilk dəfə PAŞA Holding tərəfindən təşkil olunmuş sammit Bakcell, PAŞA Bank, PAŞA Həyat, Kapital Bank, PAŞA Sığorta, BP və Caspian Innovation Center şirkətlərinin dəstəyi ilə reallaşıb.**




Sammitdə Google şirkətinin innovasiyalar üzrə baş eksperti Dr. Frederik G. Pferdt, London Biznes Məktəbinin professoru, təhsilin idarəedilməsi üzrə məsləhətçi Culian Birkinşau (Julian Birkinshaw) və strategiya, inkişaf və transformasiya üzrə ekspert Kaihan Krippendorff kimi məşhur məruzəçilər iştirak edib. Qonaq məruzəçilər innovasiyaların rəqabət üstünlüklərini necə təmin etməsi, daxili korporativ innovasiyaların və gələcəyə hazır düşüncə tərzinin formalaşması ilə bağlı dəyərli fikirlərini bölüşüblər.

Sammit çərçivəsində panel müzakirələri təşkil olunub. Burada dövlət qurumlarının nümayəndələri, yerli şirkətlərin rəhbərləri, o cümlədən “Bakcell”in baş icraçı direktoru Rainer Rathgeber korporativ innovasiyaların əhəmiyyəti, bu sahədə qurulan tərəfdaşlıqlar və çətinliklər və innovasiyaların biznesdə tətbiqi təcrübəsini müzakirə edib. Qeyd edək ki, tədbirə yerli və beynəlxalq təşkilatlardan 400-dən çox biznes və sənaye lideri qatılıb.

## “Azercell” Biznes korporativ müştəriləri üçün vebinarlar təşkil edib

**Hər zaman korporativ müştərilərinin inkişafına yönəlik təşəbbüsləri dəstəkləyən Azercell Biznes bu istiqamətdə növbəti uğurlu layihə gerçəkləşdirib. Bu dəfə “Azercell Biznes Klubu”nun üzvlərinə iki önəmli mövzu üzrə onlayn vebinarlar keçirilib.**

“Liderlik” və “Müştəriyə yönəlik xidmət mədəniyyəti” mövzularına həsr edilmiş vebinarlara 100-dən çox iştirakçı qatılıb. Onlar arasında dövlət orqanları ilə yanaşı, özəl şirkətlər, kommersiya qurumları, maliyyə təşkilatlarının təmsilçiləri də olub. Vebinarlar sürətlə dəyişən müasir işgüzar aləmdə şirkətlərin effektiv liderliyi və transformasiyasına fokuslanmışdır. İlk vebinar - “Liderlik” təlimində uğurlu rəhbər olmaq üçün vacib amillər, effektiv liderin əsas xüsusiyyətləri, komandanın motivasiyası və inkişafına aparan addımlardan bəhs olunub. İştirakçılara həmçinin, iş qrupunu real komandaya çevirmək texnikası, əməkdaşın fəaliyyətinin nəticələrinin ölçülməsi və hədəflərin müəyyən edilməsi, digər əməkdaşlarla kommunikasiyanın düzgün qurulmasına dair bilgilər verilib. “Müştəriyə yönəlik xidmət mədəniyyəti” mövzusuna həsr edilmiş vebinarda isə müştəri məmnuniyyətini qazanmağın yolları barədə məlumat təqdim olunub. Müştəriyə yüksək keyfiyyətli xidmətin göstərilməsi üçün zəruri olan əsas davranışlar, effektiv ünsiyyətin vacib şərtləri vurğulanıb. Müştəri məmnuniyyəti sahəsində mükəmməlliyə nail olmaq, xidmət səviyyəsini yüksəltmək, müraciətlərin cavablandırılmasına dair standartlar haqqında bilgilər də iştirakçıların diqqətinə çatdırılıb. Online vebinarlar “Azercell Akademiyası”nın aparıcı mütəxəssisi Aynur Abbasova və Akademiyanın dəvət etdiyi təlimçi, məsləhətçi və kouç Lalə Əbdürəhmanova tərəfindən təqdim edilib. Təlimçilər mövzularla əlaqəli iştirakçıların çoxsaylı suallarını cavablandırıblar.




Uzunmüddətli uğurlu fəaliyyət tarixinə malik Azercell Biznes tərəfdaşlarının inkişafını dəstəkləyən xidmətləri təqdim edir, onlara ölkənin istənilən yerindən bizneslərini effektiv və rahat şəkildə idarə etməklə müştərilərinə yüksək xidmət göstərmək imkanı yaradır. Korporativ müştərilərinin inkişafı və rəqəmsal transformasiyasına hər zaman önəm verən Azercell Biznes bu kimi fəaliyyətini müxtəlif istiqamətlərdə davamlı olaraq həyata keçirəcək. “Azercell Biznes” barədə ətraflı məlumat üçün <https://www.azercell.com/az/corporate.html> səhifəsinə müraciət edə və ya Azercell-in korporativ müştəriləri üçün nəzərdə tutulan Telefon Mərkəzi (*6050) ilə əlaqə saxlaya bilərsiniz.

## ELAN

**Dövlət Sərhəd Xidməti tərəfindən Elmanlı Elmanın Vəliyəddin oğluna verilmiş Fh12900 nömrəli vəsiqə itirildiyi üçün etibarsız sayılır.**

## GÜNÜN FOTOSU




Şəhriyar Məmmədyarovun oyununda ilk gedişi Qurban Qurbanov etdi...

## Kərə yağlarının ucuzlaşmayan qiymətləri

**Eldəniz Əmirov,**
iqtisadçı-ekspert

Hazırda bazarda kərə yağına olan tələbat böyük etibarilə xaricdən idxal olunmuş məhsullar hesabına təmin olunur.

▸▸ Səh. 5

## STATİSTİKA




■ İngilis dili dünyanın 59 ölkəsində rəsmi dildir. Fransız dili 29, ərəb dili isə 26 ölkədə rəsmi dil statusunu daşıyır.

■ Dünyada vətəndaşlarının ali təhsil göstəricisinə görə ilk yeri Kanada tutur - 57 faiz, Sonrakı yerləri isə 56 və 50 faizlə Rusiya və Yaponiya bölüşdürür.

■ Dünyada ən çox şəhər Rusiyadadır. Burada 1100 şəhər var.



▸▸ Səh. 7

## Dövlət sifarişli binalarda mənzillərin qiyməti